*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

ASCO

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

31 may 2019-cu il № 37-40 (9319) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### ABS-nin nümayəndələri ASCO-da seminar keçirib



***Amerika Gəmiçilik Bürosunun (ABS) Bakı ofisinin nümayəndəsi Ryan Salamti, Xəzər dənizi regionu üzrə meneceri Seyfəttin Tatlı və Yunanıstan (Afina) ofisinin nümayəndəsi Stamatis Fradelos "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) rəhbər heyəti və ASCO-nun alyans tərəfdaşı olan "Caspian Marine Servises"-in (CMS) əməkdaşları üçün seminar keçirib.***

Səh. 2

### ABŞ-ın paytaxtında Trans-Xəzər regionu ilə bağlı strateji müzakirələr aparılıb



***Mayın 24-də Xəzər Siyasət Mərkəzi və ABŞ Ticarət Palatası Azərbaycan, Əfqanıstan, Gürcüstan, Qazaxıstan, Türkiyə, Türkmənistan və Özbəkistan səfirliklərinin dəstəyi ilə Vaşinqtonda dördüncü Trans-Xəzər Forumunu keçirib.***

Səh. 3

### ASCO məcburi köçkün ailələrini bayram sovqatı ilə sevindirib



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) nümayəndələri bütün müsəlman dünyasının müqəddəs bayramlarından olan Ramazan bayramı ərəfəsində Gəmiçiliyin himayəsində olan qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı qəsəbələrə baş çəkiblər.***

Səh. 4

### ASCO-nun təsis etdiyi əlavə təqaüd əlaçı tələbələri daha yaxşı oxumağa ruhlandırır



***Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Heydər Əsədov əlaçı tələbələrlə görüşüb.***

Çay süfrəsi arxasında, qeyri-rəsmi şəraitdə keçən görüşdə Heydər Əsədov əlaçıları Akademiyanın siması adlandırıb.

Səh. 5

### "Dənizçilərin IQ testi"



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri üçün "Dənizçilərin IQ testi" adlı seminar keçirilib.***

Seminarı ASCO sədrinin müşaviri, uzun illər dənizdə çalışan, tanınmış kapitan Titos Giannakakis aparıb.

Səh. 6

### Yelkənçilərimizin Fransada keçiriləcək Avropa çempionatına hazırlığı davam edir



***Azərbaycan Yelkənli İdman Federasiyasının "Optimist" sinfi üzrə yelkənçilərdən ibarət komandası Fransada keçiriləcək Avropa çempionatına hazırlığı davam etdirir.***

Səh. 8

## Prezident İlham Əliyev: "Bu gün biz beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilmək üçün çox fəal iş aparırıq"



***Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulan 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət göstərir. Həm neft, həm qeyri-neft sektoruna qoyulan vəsait ölkəmizin iqtisadi potensialını böyük dərəcədə gücləndirə bilib.***

Bu sözləri Prezident İlham Əliyev Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda deyib.

Dövlətimizin başçısı qeyd edib: "Bu gün biz beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilmək üçün çox fəal iş aparırıq. Bu istiqamətdə də böyük addımlar atılır, böyük sərmayə qoyulur. Dəmir yolu infrastrukturu, avtomobil yollarının tikintisi, 6 beynəlxalq aeroportun fəaliyyətə başlaması, dəniz nəqliyyatının müasirləşdirilməsi – bütün bunlar son illər ərzində görülmüş işlərdir".

Büdcə daxilolmalarının artdığını deyən Prezident İlham Əliyev bildirib: "İqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həcmində artıb. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə, sosial sahədə bu artım özünü göstərsin".

## Donald Tramp: "Azərbaycan öz tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmayıb"



***Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. Cənub Qaz Dəhlizi daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir.***

Bu fikirlər ABŞ Prezidenti Donald Trampın Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda yer alır.

Məktubda daha sonra deyilir: "Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır.

Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir".

ABŞ prezidentinin məktubu belə tamamlanır: "Mən birgə səylərimizlə Cənubi Qafqazın daha da dinc, demokratik və firavan olması üçün əməkdaşlığımızın davamlı olmasını arzulayıram".

## Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli oyanışının məntiqi nəticəsi idi



***Müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 101 il ötür.***

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən



bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

# ABS-nin nümayəndələri ASCO-da seminar keçirib






***Amerika Gəmiçilik Bürosunun (ABS) Bakı ofisinin nümayəndəsi Ryan Salamti, Xəzər dənizi regionu üzrə meneceri Seyfəttin Tatlı və Yunanıstan (Afina) ofisinin nümayəndəsi Stamatis Fradelos "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) rəhbər heyəti və ASCO-nun alyans tərəfdaşı olan "Caspian Marine Servises"-in (CMS) əməkdaşları üçün seminar keçirib.***

Seminarda qlobal gəmiçilikdə tətbiq olunan yeniliklər haqqında geniş məlumat verilib. Qeyd olunub ki, artıq bu sahədə ciddi addımlar atılır. 2020-ci ildən isə dünya gəmiçiliyində texnoloji baxımdan yeniliklərin tətbiqi daha geniş vüsət alacaq.

ABS nümayəndələrinin sözlərinə görə, qarşıdakı illərdə dünya sularında üzəcək gəmilər çoxfunksionallığı ilə yanaşı, ekoloji baxımdan da ətraf mühitə daha az ziyan vuracaq. Buna əsas töhfəni Beynəlxalq Dəniz Təşkilatının (IMO) yeni tələbləri verəcək. Bu tələblər 2020-ci ildən etibarən dəniz gəmilərinin yüksək kükürdlü yanacaqdan istifadəsini məhdudlaşdırır.

İnteraktiv formatda baş tutan seminara ASCO-nun Türkiyə ofisinin nümayəndələri də birbaşa video bağlantı ilə qoşulublar.

Qeyd edək ki, eyni formatlı seminar günün ikinci yarısında Azərbaycan Dövlət Dəniz Akademiyasında da keçirilib.

# Salome Zurabişvili: "Gürcüstan ilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizinə çevrilib"



***Gürcüstan ilə Azərbaycan bu gün olduğu qədər heç zaman yaxın olmayıb. Bizim tarixin sınağından çıxmış dostluğumuz var. Ölkələrimiz arasında istənilən məsələ yalnız dialoq yolu ilə həll oluna bilər.***

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Prezidenti Salome Zurabişvili Azərbaycanın Respublika Günü və diplomatik xidmət orqanlarının 100 illiyinə həsr olunmuş rəsmi qəbuldakı çıxışı zamanı söyləyib.

Onun sözlərinə görə, Gürcüstan ilə Azərbaycan çox böyük inkişaf yolu keçib. Bu gün hər iki ölkə birlikdə təkcə Cənubi Qafqaz regionu üçün deyil, dünya ölkələri üçün mühüm əhəmiyyət kəsb edən layihələr həyata keçirir. "Bunun nəticəsidir ki, Gürcüstan ilə Azərbaycan Avropa və Asiya arasında nəqliyyat dəhlizinə çevrilib", - deyə, S.Zurabişvili vurğulayıb.

***Xətayi Əzizov***

# İran, Azərbaycan və Rusiyanın yükdaşımalarının tənzimlənməsi ilə bağlı sənədlər hazırlanacaq




***Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadənin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiyada səfərdə olub.***

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, səfər çərçivəsində R.Quluzadə Rusiya Federasiyasının Nəqliyyat naziri Yevgeni Ditrix ilə ikitərəfli görüş keçirib. Moskvada baş tutan görüşdə Azərbaycanla Rusiya arasında nəqliyyat və logistika sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri, eləcə də Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə tranzit yükdaşımalarının həcminin artırılması istiqamətində görüləcək tədbirlər barədə fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətləri Azərbaycan-Rusiya dövlət sərhədindən "Samur" (Azərbaycan) – "Yaraq-Qazmalar" (Rusiya) buraxılış məntəqələri ərazisində Samur çayı üzərində tikilən körpünün istismara verildikdən sonra istifadəsi və "Platon" sistemi haqqında danışıqlar aparıb. Eyni zamanda, Xəzər dənizində birgə xilasetmə işlərinin təşkil olunması, hava daşımalarında və nəqliyyatın rəqəmsallaşdırılması sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib.

Tərəflər İran, Azərbaycan və Rusiya arasında yükdaşımalarının tənzimlənməsi ilə bağlı işçi qrupunun danışıqlar aparması və sənədlərin hazırlanması barədə də razılığa gəliblər.

# XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgisi davam edir

## ASCO-nun göz oxşayan stendi qarşısında ayaq saxlayan ziyarətçilər çoxdur










***Bakı Ekspo Mərkəzində Xəzəryanı regionun energetika sektorunun ən irimiqyaslı tədbiri - 26-cı Beynəlxalq "Xəzər Neft və Qaz" ("Caspian Oil and Gas") sərgisi keçirilir.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində nitq söyləyib və sonra sərgi ilə tanış olub.

Tanınmış beynəlxalq platforma və regionun neft-qaz sənayesinin əsas tədbiri olan sərgi hər il neft-qaz layihələrinin müzakirəsi və enerji təhlükəsizliyinin təminatı üçün ən yüksəksəviyyəli rəhbərləri bir araya gətirir. "Caspian Oil and Gas" sərgisi neft, qaz və energetika sahəsində aparıcı peşəkarların görüş yerinə çevrilib və burada gələcək əməkdaşlığa dair memorandum, saziş və müqavilələr imzalanır.

Sərgi iştirakçılarının siyahısına qlobal neft və energetika sektorunu təmsil edən aparıcı şirkətlər daxildir. Builki sərgidə 34 ölkəni təmsil edən 290 şirkət iştirak edir. Almaniya, Belarus və Rusiyanın qabaqcıl şirkətləri milli stendlərdə ən son məhsullarını təqdim edirlər. İştirakçı şirkətlər tərəfindən neft hasilatı və enerji resurslarının daşınması, neft-qaz saxlama sistemlərinin təmin edilməsi üzrə avadanlıq, xidmət və innovativ texnologiyaların geniş çeşidi, platforma və üzən qazma qurğuları, boruların çəkilməsi və boru kəmərlərinin təhlükəsizlik sistemlərinin təmin olunması, eləcə də servis xidmətləri təqdim olunur. İlk dəfə olaraq, sərgidə defektoskopiya və yerdən uzaq məsafədə işlərin görülməsi kimi sahələr işıqlandırılır.

Ardıcıl olaraq ikinci ildir ki, sərgidə iştirak edən Rusiya İxrac Mərkəzi bu ölkənin ən qabaqcıl şirkətlərinin nümayəndələrini öz stendində bir araya gətirir. Bu il öz ekspozisiya sahələrini genişləndirmiş "Halliburton", "Schlumberger" və "Worley Parsons" kimi şirkətlər sərgi qonaqlarına öz innovativ məhsul və xidmətlərini təqdim edirlər. İştirakçıların ümumi sayının 24 faizini təşkil edən debütantlar arasında Azərbaycan, Çin, Qazaxıstan, Türkiyə, Monako, Niderland, Hindistan və digər ölkələr var.

İyunun 1-dək davam edəcək sərgidə "B2B" formatlı ikitərəfli görüşlər keçirilir. Bu görüşlərdə yerli və xarici şirkətlərin nümayəndələri əməkdaşlıq imkanlarını müzakirə edirlər.

Bundan başqa, sərgi çərçivəsində 26-cı Beynəlxalq "Xəzər Neft və Qaz" konfransı keçirilib. Sərginin tərkib hissəsi olmaqla neft-qaz sektorunun, eləcə də bu sektor ilə əlaqəli müxtəlif sahələrin rəhbərləri üçün də əsas platforma olan konfransda 30 ölkədən 500-dək nümayəndə iştirak edib.

Bakı Ekspo Mərkəzində, həmçinin energetika və bərpaolunan enerji sənayesi nailiyyətlərinin nümayişi sahəsində Xəzəryanı regionun ixtisaslaşmış tədbiri – 9-cu Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji ("Caspian Power 2019") sərgisi də açılıb. Sərgi iştirakçıları arasında Azərbaycan, Belarus, Rusiya, Türkiyə və digər ölkələrdən energetika sahəsində aparıcı texnologiya təchizatçıları yer alır. Sərgidə Kozlov adına Minsk Elektrotexnika Zavodu, "Energomera" konserni, "Luna" elektrik şirkəti və digər eksponentlər tərəfindən transformatorlar, kabellər, elektrik avadanlıqları, enerjiyə qənaət üzrə ən son texnologiyalar və sair məhsullar təqdim olunur. Sərginin bölmələri arasında isə energetika və elektrotexnika, alternativ enerji mənbələri, kabel-ötürücü məhsulları, işıqlandırma yer alır.

"Caspian Power 2019" sərgisində enerjidən istifadə üzrə ən son nailiyyətlər təqdim edilir və burada elektroenergetika sənayesinin aparıcı nümayəndələri ilə görüşlər keçirmək, ən son texnoloji məhsullar və elektroenergetika sahəsinin inkişaf strategiyaları barədə məlumat almaq, eləcə də perspektiv müqavilələr imzalamaq mümkündür.

Sərgidə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Caspian Marine Services" (CMS) şirkəti birgə stendlə təmsil olunur.

Builki sərgidə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilk dəfə olaraq ASCO brendi ilə iştirak edir. Stenddə ziyarətçilərə şirkətin təmsilçiləri ASCO-nun gəmilərinin istər ölkə daxilində, istərsə də beynəlxalq layihələrdə iştirakı və rolu barədə ətraflı məlumat verir, onları maraqlandıran sualları cavablandırırlar. Bundan başqa, stenddə quraşdırılan monitorda ASCO-nun dənizdəki əməliyyatlarından görüntüləri əks etdirən videoçarx nümayiş olunur. Həmçinin, iştirakçılara müxtəlif çap məhsulları təqdim edilir.

ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə və MDB ölkələrini təmsil edən şirkətlərin qatıldığı sərgidə ASCO-nun stendi xüsusi tərtibatına görə göz oxşayır. Bu baxımdan stendimizin qarşısında ayaq saxlayan ziyarətçilər də çox olur.

# "The National Interest" jurnalında Cənub Qaz Dəhlizinin əhəmiyyəti və Transxəzər qaz kəmərinin imkanları barədə məqalə dərc edilib

***Amerikada çıxan "The National Interest" jurnalında "İrs Fondu" yanında Ellison adına Xarici Siyasi Araşdırmalar Mərkəzinin direktoru Lyuk Koffinin və Vaşinqtondakı Xəzər Siyasi Mərkəzinin direktoru Əfqan Niftinin məqaləsi dərc edilib.***

Məqalədə Transxəzər qaz kəmərinin imkanlarından bəhs edilir. Müəlliflər yazırlar ki, Cənubi Qafqazda birinci enerji boru kəməri hələ 1906-cı ildə fəaliyyətə başlayıb. Xəzər dənizi sahilindəki Bakı limanını Qara dənizdən Batumi limanı ilə birləşdirən həmin boru kəməri layihəsi üçün istifadə edilmiş borular Mariupolda (Ukrayna) hazırlanırdı. Bu fakt geniş bir regionda mövcud olmuş və hələ də üstünlük təşkil edən qarşılıqlı əlaqələrin möhkəmliyinə sübutdur.

Müəlliflər yazırlar ki, diametri cəmi 20 santimetr olan həmin boru kəmərindən ağ neftin nəql edilməsi üçün istifadə olunurdu. İndi, o vaxtdan bir əsrdən çox keçəndən sonra həmin boru kəmərinin əvəzinə Orta Asiyanı Avropa ilə birləşdirən müasir qaz və neft kəmərləri şəbəkəsi qurulub. Lakin regionda istifadəyə verilmiş və hələ tikilməkdə olan bütün boru kəmərlərini nəzərə aldıqda belə, daha bir mühüm tərkib hissə çatışmır. Transxəzər qaz kəməri təbii qazın Xəzər dənizindən nəql edilməsinin iqtisadi baxımdan yeganə məqsədəuyğun üsuludur, çünki maye qazın belə qısa məsafədə dəniz yolu ilə nəql edilməsi sadəcə sərfəli deyil.

Transxəzər boru kəməri Avropanın enerji landşaftını dəyişə bilər. Son hesablamalara görə, Xəzər regionunda 292 trilyon kub fut təbii qaz var. Bu, o deməkdir ki, Xəzər regionu dünyada ən zəngin ehtiyatlara malik olan regiondur. Azərbaycan 2018-ci ilin ortalarında Transanadolu boru kəməri (TANAP) vasitəsilə Türkiyəyə qaz nəql etməyə başlayıb və gələn il Transadriatik qaz kəməri vasitəsilə İtaliyaya nəql etməyə başlayacaq. Cənub Qaz Dəhlizinin layihə gücünün 31 milyard kubmetrə bərabər olduğunu nəzərə alsaq, gələcək Transxəzər qaz kəmərindən qaz nəqlini daha da artırmaq mümkün olacaq. Transxəzər qaz kəməri Avropa ölkələrinin digər təchizatçıların inhisarından asılılığını da azalda bilər. Üstəlik, keçən il beş Xəzəryanı ölkə tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya boru kəmərlərini yalnız layihədə iştirak edən ölkələrin razılığı ilə çəkməyə imkan verir, bu da öz növbəsində yeni imkanlar yaradır.

Lakin Koffi və Niftinin fikrincə, Transxəzər boru kəmərini inşa etməzdən əvvəl Bakı və Aşqabad Xəzər dənizində Azərbaycanın və Türkmənistanın offşor yataqları arasında interkonnektor tikilməsi məsələsini həll etməlidirlər. Gələcəkdə interkonnektorlardan istifadə etməklə Qazaxıstanın qaz yataqlarının da bu kəmərə qoşulması variantları öyrənilməlidir, çünki Qazaxıstanın bəzi yataqları kommersiya baxımından rentabelli sayıla bilməz, onlar kifayət qədər yaxın yerləşir.

Türkmənistanın və Azərbaycanın mövcud qaz yataqlarını birləşdirən interkonnektorun uzunluğu cəmi 60 mil olacaq və onun tikintisinə cəmi 500 milyon dollar xərc çəkmək lazım gələrdi. Müqayisə üçün bildirək ki, bütün Transxəzər boru kəmərinin tikintisinə təqribən 1,5 milyard dollar lazım gələcək. İnterkonnektorun olması Avropanın uzunmüddətli enerji təhlükəsizliyinə şərait yaradan böyük nailiyyət olardı.

Transxəzər boru kəmərinin tikintisinin başa çatdırılması Birləşmiş Ştatlar üçün də bir sıra üstünlüklər yaradacaq. Maraqlıdır ki, Tramp administrasiyasının bəzi nümayəndələri bu faktı indidən etiraf edirlər. Prezident Tramp bu yaxınlarda Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova Novruz bayramı münasibətilə göndərdiyi məktubundan yazırdı: "Ümidvaram ki, Türkmənistan bu yaxınlarda Xəzər dənizinin hüquqi statusu müəyyən ediləndən sonra Qərbə qaz ixracı üçün yaranmış yeni imkanlardan istifadə edə biləcək". Transxəzər boru kəmərinin Birləşmiş Ştatlar üçün ən aşkar üstünlüyü ondan ibarətdir ki, bu kəmər Avropanın enerji təhlükəsizliyini artıracaq.

Koffi və Nifti öz məqalələrinin sonunda yazırlar ki, Tramp Administrasiyası Cənub Qaz Dəhlizi və Transxəzər boru kəməri kimi alternativ mənbələrdən qaz təchizatı layihələrinin həyata keçirilməsini dəstəkləməlidir. Tramp Administrasiyası bu məsələdə 1990-cı illərdə Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin reallaşması məsələsində Bill Klinton administrasiyasının nümayiş etdirdiyi kimi qətiyyətli olmalıdır.

***Yusif Babanlı***

# ABŞ-ın paytaxtında Trans-Xəzər regionu ilə bağlı strateji müzakirələr aparılıb

***Mayın 24-də Xəzər Siyasət Mərkəzi və ABŞ Ticarət Palatası Azərbaycan, Əfqanıstan, Gürcüstan, Qazaxıstan, Türkiyə, Türkmənistan və Özbəkistan səfirliklərinin dəstəyi ilə Vaşinqtonda dördüncü Trans-Xəzər Forumunu keçirib.***

Forumla əlaqədar ABŞ Dövlət Departamenti bəyannamə yayaraq iştirakçı ölkələri böyük Xəzər regionunda firavanlığın və sülhün gücləndirilməsi üçün işlər görməyə, Amerika Birləşmiş Ştatları və region ölkələri arasında biznes, akademik, mədəni və digər əlaqələri möhkəmləndirməyə və əməkdaşlığı gücləndirməyə çağırıb.

2016-cı ildən ardıcıl olaraq hər il keçirilən forum Birləşmiş Ştatların siyasət, biznes liderlərini və Trans-Xəzər dəhlizi ölkələrinin nümayəndələrini strateji tərəfdaşlığın artırılması, biznes, ticarət və investisiya imkanlarının müzakirəsi üçün bir araya gətirir.

ABŞ Ticarət Palatasının Vaşinqtondakı baş ofisində keçirilən dördüncü Trans-Xəzər Forumu Birləşmiş Ştatlar və Xəzər regionu ölkələrindən olan biznes liderləri, xarici siyasət mütəxəssisləri və dövlət rəsmilərini bir araya toplayaraq onlara yeni istiqamətləri araşdırmaq və yeni imkanları müəyyən etmək üçün növbəti dəfə platforma yaradıb.

ABŞ Ticarət Palatasının vitse-prezidenti Qari Litman və Xəzər Siyasət Mərkəzinin icraçı direktoru Əfqan Nifti forumun açılışında tədbirin əhəmiyyətindən danışıblar. Əfqan Nifti Trans-Xəzər forumunun Cənubi Qafqaz və Mərkəzi Asiya arasında əlaqələrin və əməkdaşlığın artırılması üçün mühüm hadisələrdən biri olduğunu ifadə edib. Qeyd olunub ki, region ölkələrinin müstəqilliyini tanıyan ilk ölkələrdən biri kimi, ABŞ hər zaman bu ölkələrin bir-biri ilə sıx əməkdaşlığın inkişafına dəstək verib.

Forumun əsas məruzəçilərindən biri ABŞ Dövlət Katibinin iqtisadi inkişaf, enerji və ətraf mühit məsələləri üzrə müavini Manişa Sinq olub. O, qeyd edib ki, iqtisadiyyatı güclü olan region gələcək nəsillər üçün firavan gələcək təmin etmək iqtidarındadır. Trans-Xəzər regionunun uzun müddət vacib tranzit marşrutu olduğunu vurğulayan Manişa Sinq regionda iqtisadi əməkdaşlıq üçün daha da böyük potensialın mövcud olduğunu bildirib. Enerji təhlükəsizliyi məsələlərinə toxunan xanım Sinq bunun üçün yeni strukturların yaradılmasının zəruri olduğunu qeyd edib.

Tədbirdə Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov, Əfqanıstanın səfiri Röya Rahmani, Gürcüstanın səfiri David Bakradze, Qazaxıstanın səfiri Erjan Kazıkxanov, Türkiyənin səfir müavini Cem Utkan, Özbəkistanın səfiri Cavlon Vahabov və Tacikistanın səfiri Farhod Salim çıxış ediblər.

Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov öz çıxışında əməkdaşlığın və əlaqələrin Azərbaycan üçün hər zaman prioritet məsələ olduğunu bildirərək yaradılan iqtisadi əməkdaşlıq komissiyalarını təqdir edib.














Trans-Xəzər Forumu dörd sessiyadan ibarət olub. ABŞ ilə Xəzər region arasında inkişaf edən tərəfdaşlığa həsr olunmuş birinci panelin moderatorluğunu Xəzər Siyasət Mərkəzinin idarə heyətinin üzvü Riçard Houqland edib. Sessiyada əsas nitqlə çıxış edən ABŞ prezidentinin köməkçisinin müavini və Ağ Evin Milli Təhlükəsizlik Şurasının Mərkəzi Asiya üzrə baş direktoru Liza Kurtis ölkəsinin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmaq istiqamətində səylərini dəstəklədiyini ifadə edib.

Liza Kurtis Xəzər regionu ticarət mərkəzi üçün vacib bölgəyə çevrilməkdə olduğunu və bu regionun ABŞ hökumətinin əsas maraqlarının qovşağında yerləşdiyini söyləyib. Baş direktor ABŞ və Trans-Xəzər regionu ölkələri arasında daha dərin və əsaslı iqtisadi əlaqələr üçün böyük potensialın olduğunu da qeyd edib.

Paneldə Əfqanıstanın Xarici İşlər Nazirliyinin baş direktoru Həsən Suruş, Azərbaycanın Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyinin xarici əlaqələr üzrə departamentinin direktoru Şahin İsmayılov, Gürcüstanın Siyasət İdarəçiliyi Qrupunun direktoru Aleksi Aleksişvili məruzələrlə çıxış ediblər.

Xəzər Siyasət Mərkəzinin idarə heyətinin üzvü admiral Ronald Maklaren tərəfindən moderatorluq olunan ikinci sessiya İnfrastruktur inkişafı əsasında Trans-Xəzər regionunun əlaqələndirilməsi mövzusuna həsr olunub. İlk məruzəçi Dünya Bankının icraçı direktoru Verner Qruber olub.

O, infrastrukturun iqtisadi inkişaf üçün zəruri amil olduğunu vurğulayıb. Xəzər dəhlizinin Avropa və Çin iqtisadiyyatlarını birləşdirdiyi qeyd olunub və bununla bölgənin iqtisadi inteqrasiyasını da sürətləndirməsi iqtidarında olması bildirilib.

Digər məruzəçilərdən biri Türkiyə Odalar və Borsalar Biriliyinin prezidenti Rıfat Hisarcıklıoğlu olub. O, Xəzər regionuna layiq olduğu qədər diqqət yetirilmədiyini söyləyib. Qeyd edib ki, neft və qaz kimi təbii resurslar artıq davamlı inkişaf üçün kifayət deyil. Özəl sektorun və xarici ticarət həcmlərinin artırılmasının vacibliyini vurğulayıb.

Daha sonra ABŞ-ın Xarici özəl investisiya korporasiyasının (OPIC) siyasi risklərin sığortalanması departamentinin direktoru Marlena Harli çıxış edib. O, OPIC-in Xəzəryanı ölkənin infrastruktur layihələrində özəl sektorun kapitalının dəstəklənməsinə böyük maraq göstərdiyini söyləyib.

İkinci paneldə Azərbaycanın "Xəzər Dənizi Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Fərhad Quliyev, Azərbaycan "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktor müavini Məftun Abbasov, Azərbaycan Dövlət Dəniz Agentliyinin sədr müavini Əhməd İsmayılov, Gürcüstanın siyasət idarəçiliyi təşkilatının rəhbəri Aleksi Aleksişvili çıxış ediblər.

Üçüncü sessiyanın əsas məruzəçilərindən biri ABŞ Dövlət Departamentinin Katibinin enerji resursları üzrə müavini Sandra Oudkörk olub. O, Xəzər regionunun enerji baxımından unikal olduğunu və ölkələrin enerji təhlükəsizliyinə böyük diqqət yetirməsinin zəruri olduğunu bildirib. Sandra Oudkörk enerji təhlükəsizliyinin milli və iqtisadi təhlükəsizliyin əsası olduğunu vurğulayıb.

Daha sonra sessiyanın panelində Xəzər Siyasət Mərkəzinin idarə heyətinin üzvü Robert Sekuta çıxış edib. R.Sekuta Böyük Xəzər regionunun enerjiyə olan tələbatı ödəmək üçün əhəmiyyətli dərəcədə kömək edə biləcək mühüm enerji qaynaqlarına sahib olduğunu söyləyib.

Forumun dördüncü sessiyasının əsas məruzəçilərindən biri olan ABŞ-ın Ticarət Nazirliyinin istehsalat üzrə müavini İan Steff Amerikanın Xəzər regionu ilə olan biznes əlaqələrinin vacib olduğunu bildirib və əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılması üçün çalışdıqlarını söyləyib.

Digər məruzəçi ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Avropa və Avrasiya üzrə direktor müavini Aleksander Sokolovski sülhün, təhlükəsizliyin və açıq ticarət mühitinin regionu ticarət mərkəzinə çevirə biləcəyini ifadə edib. Direktor müavini USAID enerji investisiyalarını, bazar islahatlarını, enerji təhlükəsizliyinin inkişafını dəstəklədiyini bildirib.

Sonuncu sessiyanın panelində "AmCham"ın icraçı direktoru Natəvan Məmmədova, Əfqanıstanın Xarici İşlər Nazirliyinin baş direktoru Həsən Suruş, Gürcüstanın MKD-ın icraçı tərəfdaşı Viktor Kipiani çıxış edib.

Qeyd edək ki, Azərbaycanın təşəbbüsü ilə ərsəyə gəlmiş Trans-Xəzər Forumu 2016-cı ildən etibarən hər il Vaşinqtonda keçirilir. AZƏRTAC builki forumda informasiya sahəsində tərəfdaş qismində çıxış edib.

***Yusif Babanlı***

# İsrailin "İ24" xəbər telekanalı: "Dağlıq Qarabağ Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış ərazisidir"




***Azərbaycan Odlar Diyarıdır. Bu od, həm çoxlarının qəlbinə hərarət verir, həm də ərazilərinin Ermənistan tərəfindən işğal edilməsindən zərər çəkmiş Azərbaycan xalqının tarixinə işıq saçır.***

AZƏRTAC xəbər verir ki, israilli jurnalist Daniel Tsemax İsrailin nüfuzlu "İ24" telekanalında nümayiş etdirilmiş süjetində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiki vəziyyəti barədə söhbət açır: https://www.youtube.com/watch?v=G3wUB5yC-PM

Jurnalistin sözlərinə görə, Sovet imperiyasının dağılmasından keçən 27 ildən artıq müddətdə Azərbaycan onun ərazisinin 20 faizini işğal etmiş qonşu Ermənistanın ərazi iddiaları ilə bağlı etnik münaqişədən əziyyət çəkir. Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonun ərazisi Ermənistan tərəfindən işğal edilib. İsrailli jurnalist vurğulayır ki, Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış ərazisidir.

Daniel Tsemaxın sözlərinə görə, illər boyu mövcud olan atəşkəs rejiminə baxmayaraq bu illər ərzində Ermənistanla Azərbaycan arasında vaxtaşırı döyüş əməliyyatları baş verib.

İsrailli jurnalist öz süjetində deyib: "Sonuncu tammiqyaslı hərbi qarşıdurma 2016-cı ilin aprelində baş verib. Azərbaycan silahlı qüvvələri 2016-cı il aprelin əvvəlində Ermənistanın hərbi provokasiyalarına cavab olaraq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə erməni ordusuna sarsıdıcı hərbi zərbələr endirib. Bu döyüşlərin sübutları hələ itməyib".

Tsemax yazır ki, cəmi bir neçə il bundan əvvəl ermənilərin atdığı minomyot mərmiləri Tərtər rayonunun mərkəzindəki binalara düşüb. Qanlı münaqişənin izləri bu şəhərdə hələ də qalır, münaqişə hər gün davam edir. Lakin bu münaqişə Azərbaycan əhalisini daha sıx birləşdirib, xalq daha dözümlü olub, öz torpağına daha möhkəm bağlanıb.

Tərtər sakini Bulud Budaqov: "Münaqişənin lap əvvəlindən biz buradayıq və heç yerə getməyəcəyik. Ölsək də burada öləcəyik. Bu, bizim torpağımızdır, bu torpaq bizə, bizim xalqımıza məxsusdur. Biz başqasının torpaqlarına iddia etmirik, öz torpağımızda rahat yaşamaq istəyirik".

İsrailli jurnalist deyir: "İşğal edilmiş Azərbaycan əraziləri ilə təmas xəttinə yaxınlaşdıqda orada yandırılmış torpağı, dağıdılmış evləri və viran edilmiş məzarlıqları görürük. Biz bilirik ki, Ermənistan ilə Azərbaycan arasında ərazi münaqişəsi nəticəsində qurbanlar çox olub. Erməni silahlı dəstələri tərəfindən dağıdılmış bu evdə sözün həqiqi mənasında faciə baş verib. 2016-cı ilin aprel ayında ermənilər tərəfindən buraxılmış raket birbaşa bu evə düşərək onu dağıdıb.

Həlak olmuş azərbaycanlı TƏRANƏ HƏSƏNOVANIN ANASI deyir: "Mənim evim raket zərbəsi ilə dağıdılıb. Ermənilərin atdığı mərmi evimin həyətinə düşəndə 16 yaşlı qızım Təranə Həsənova faciəvi şəkildə həlak olub".

Tsemax qeyd edir ki, azərbaycanlıların sözlərinə görə, ermənilər daim provokasiya və təxribatlar törədir, Azərbaycan kəndlərini atəşə tutur, nəticədə dinc əhali arasında tələfat olur. Öz doğma torpaqlarını işğalçılardan azad etməyə çalışan Azərbaycanlı əsgərlər fədakarcasına döyüşərək, möhkəmlədilmiş yüksəklikləri qısa müddətdə tutub və erməniləri oradan çıxarıblar. Hasarlar, minalar, pulemyot və artilleriya atəşləri bu əsgərləri dayandırmayıb. Lələtəpə yaxınlığında şiddətli döyüşdə Azərbaycan silahlı qüvvələri Cocuq Mərcanlı kəndinin yaxınlığındakı strateji əhəmiyyətli döyüş postunu tutublar. Azərbaycan hökuməti bu kəndi bərpa edib və kəndin əvvəlki sakinlərinin hamısı oraya qayıda biliblər.

Ermənilər həm Lələtəpədə, həm də Cocuq Mərcanlı kəndi uğrunda döyüşdə rus tanklarından və artilleriya silahlarından istifadə ediblər.

Azərbaycan müdafiə nazirinin müavini general Kərim Vəliyev: "Ermənistanda Rusiyanın hərbi bazaları var, onlar Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində əməkdaşlıq edir və eyni hərbi struktura daxildirlər".

Kərim Vəliyev deyir: "Biz Rusiyadan silahları pulla alırıq, Ermənistana isə Rusiya silahı pulsuz verir. Əlbəttə, belə bir fikir yaranır ki, görünür, bəzi ölkələr bu münaqişəsinin davam etməsində maraqlıdırlar".

Süjetin sonunda studiyada çıxış edən Daniel Tsemax vurğulayır ki, bu gün İsrail ilə Azərbaycan arasında strateji tərəfdaşlıq yüksək səviyyədədir. Məhz Azərbaycan ilə İsrailin hərbi əməkdaşlığı sayəsində regionda qüvvələr nisbəti əsaslı şəkildə dəyişib və Azərbaycan silahlı qüvvələri praktiki olaraq bir neçə gün ərzində işğalçı erməni ordusunun ön hissələrini məhv ediblər. Tsemax vurğulayır ki, bu gün Azərbaycan ilə İsrail arasında hərbi və hərbi-texniki sahədə münasibətlər tərəfdaşlıq münasibətləri kimi səciyyələnir.

İsrailin nüfuzlu İ24 xəbərlər telekanalının israilli jurnalisti Daniel Tsemax öz süjetinin sonunda deyir: "İndiki halda tərəfdaşlıq çox yüksək səviyyədədir, ikitərəfli siyasi və iqtisadi münasibətləri etimada əsaslanan yüksək səviyyəli strateji tərəfdaşlıq hesab etmək olar".

# Aralıq dənizindən keçərək Avropaya üz tutan qaçqınların sayı azalsa da...



***Vyanada Avropaya miqrasiya axınına həsr olunmuş beynəlxalq konfrans keçirilib.***

"Şərqi Aralıq-Qərbi Balkan marşrutu boyunca miqrasiya çağırışları" mövzusunda konfransın əsas mövzuları böhranın qarşısının alınması və yenidən yarana biləcək fövqəladə vəziyyətə hazırlıq olub.

Konfransdan əvvəl Avstriyanın daxili işlər naziri Herbert Kikl bildirib ki, tədbirin məqsədi Qərbi Balkan marşrutu üzrə yeni miqrasiya axınının qarşısını almaq və 2015-2016-cı illərdəki miqrasiya böhranı zamanı buraxılmış səhvlərə yol verməməkdir. Nazir, həmçinin qeyd edib ki, 2015-ci ildə Avropaya qaçqın və miqrant axınına cavab olaraq, təşkil edilən beynəlxalq miqrasiya konfransı axından beş ay sonra keçirilib və cavab xarakteri daşıyıb. Hazırkı konfrans isə qabaqlayıcı xarakter daşıyır.

Konfransda Beynəlxalq Miqrasiya Təşkilatı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, Avropol, Avropa sərhədlərinin mühafizəsi agentliyi (Frontex), Avropa Komissiyasının nümayəndələri ilə yanaşı, Qərbi Balkan marşrutu üzərində yerləşən ölkələrin təmsilçiləri iştirak ediblər.

Qeyd olunub ki, Aralıq dənizindən keçərək Avropaya üz tutan qaçqınların sayı ildən-ilə azalsa da, Şərqi Aralıq və Balkan marşrutu ilə hərəkət edən miqrant axınında yüksəliş müşahidə edilir. Frontex tərəfindən təqdim edilən statistikaya görə, Şimali Afrikadan Aralıq dənizi vasitəsilə Avropaya gələn qaçqınların sayı bu ilin ilk üç ayı ərzində 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 13 faiz aşağı düşüb. Lakin Şərqi Aralıq marşrutunda isə 10 faiz artıb. Qərbi Balkan marşrutunda isə artım 81 faiz və ya 2300 nəfər olub. Bu artımı nəzərə alaraq, müvafiq hazırlıq tədbirlərinin görülməsi zərurəti yaranıb və konfransda qəfil böhranla qarşılaşmamaq üçün tədbirlər planı müzakirə edilib.

***Elgün Niftəli***

# Bakıda ilk dəfə keçirilən "Port Festival"a maraq böyük idi










***Mayın 25-də Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanında "açıq qapı" günü formatında "Port Festival 2019" keçirilib.***

Xəzər dənizi regionunda ilk dəfə bu formatda keçirilən tədbirdə Bakı və Şirvan şəhərləri, Qaradağ, Salyan, Hacıqabul, Sabirabad, Neftçala rayon sakinləri, məktəbli və yeniyetmələr iştirak edir, yeni və müasir standartlara uyğun inşa edilən limanla tanış olmaq imkanı qazanırlar. Tədbirdə nəqliyyat və logistika sahəsində fəaliyyət göstərən dövlət və özəl şirkətləri, Azərbaycanda akkreditə olunmuş diplomatlar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov qeyd edib ki, Azərbaycanda nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən dövlət siyasəti və qlobal miqyaslı təşəbbüslər nəticəsində 2018-ci il mayın 14-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan yeni Bakı Limanı Xəzər dənizinin ən böyük limanlarından biridir. Hazırda liman Mərkəzi Avrasiya regionunda mühüm nəqliyyat və logistika qovşağına çevrilməkdədir, dünyanın aparıcı limanları, nəqliyyat və logistika şirkətləri ilə faydalı əməkdaşlıq qurmaqdadır.

T.Ziyadovun sözlərinə görə, yeni Bakı Limanında müasir dünya standartlarına uyğun yaradılan infrastruktur, görülən işlərin ölkəmizə, o cümlədən ətraf rayon və qəsəbələrdə yaşayan əhalinin sosial rifahına göstərəcəyi müsbət təsirindən, əlavə iş yerlərinin açılması və görülmüş digər tədbirlərlə ictimaiyyəti tanış etmək baxımından "Port Festival"ın keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

"Port Festival" dünyanın bütün iri liman şəhərlərində keçirilir. Yeni Bakı Limanında təşkil olunan festivalda 5 mindən çox insanın iştirak etməsi və hər il keçirilməsi nəzərdə tutulur.

Daha sonra festivala qatılan dövlət və özəl qurumların, səfirliklərin stendləri ilə tanışlıq olub.

Festival zamanı tədbirin müxtəlif tərəfdaşları həm uşaqlar, həm də böyüklər üçün müxtəlif əyləncəli və öyrədici oyunlar təşkil edib. Rəngarəng proqramı olan festivalda mini qolf və mini futbol meydançaları, ilkin tibbi yardım təlimi, robot şou, virtual reallıq kabinələri, ölkəmizin istedadlı gəncləri tərəfindən konteynerlərin üstündə qrafiti şou, fləşmoblar, şahmat oyunları, azyaşlılar üçün oyun meydançası, liman avadanlıqlarının sərgisi təşkil edilib.

Maraqlı hissələrdən biri isə Dövlət Sərhəd Xidmətinin helikopterinin liman akvatoriyasında xilasetmə əməliyyatının, Fövqəladə Hallar Nazirliyinin xilasetmə kater və avadanlıqlarının nümayişi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus gəmi ilə gəzintinin təşkil edilməsi olub. Eyni zamanda, liman əməkdaşları tərəfindən Bakı Limanının texniki və əməliyyat imkanları nümayiş etdirilib.

Festival mayın 26-da başa çatıb.

*Elvin Camalov*

# ASCO məcburi köçkün ailələrini bayram sovqatı ilə sevindirib



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) nümayəndələri bütün müsəlman dünyasının müqəddəs bayramlarından olan Ramazan bayramı ərəfəsində Gəmiçiliyin himayəsində olan qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı qəsəbələrə baş çəkiblər.***

Dənizçilər həmişə olduğu kimi, bu dəfə də əslən Xocalı, Kəlbəcər, Laçın, Ağdam, Şuşadan olan və Goranboy rayonunda müvəqqəti məskunlaşan 779 qaçqın və məcburi köçkün ailəsinə, ümumilikdə 3350 nəfərə zəruri ərzaq məhsullarından ibarət bayram sovqatı paylayıblar.

Bayram sovqatlarını qəbul edən sakinlər onlara hər zaman göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və ASCO-nun rəhbərliyinə minnətdarlıqlarını bildiriblər, bayram arzularını dilə gətiriblər.

# İki yüzə yaxın insan itkin düşmüş hesab edilir



***Konqo Demokratik Respublikasında yerləşən göllərdən birində insanları daşıyan gəminin batması nəticəsində azı 30 nəfər həyatını itirib, xeyli sayda insan itkin düşüb.***

TASS informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə "Associated Press" məlumat yayıb.

İnonqo şəhər meri Saymon Vemba bildirib ki, gəmidən onların əksəriyyəti maaş almaq üçün gölün o biri tayına gedən yerli məktəblərin müəllimləri olub. İki yüz nəfərə yaxın insan itkin düşmüş hesab edilir.

Qəza zamanı 80-dən çox sərnişinin həyatını xilas etmək mümkün olub.

# Qəza baş verən rayonda gecə vaxtı sıx duman olub



***Yaponiyanın şərq sahillərində, Sakit okean sularında iki yapon yük gəmisi toqquşub.***

Gecə saat 2 radələrində baş verən hadisə nəticəsində dörd nəfər itkin düşüb.

Bildirilir ki, qəza Çiba prefekturasının İnubosaki şəhərindən 12 kilometr məsafədə baş verib. Hadisə nəticəsində gəmilərdən biri batıb. Qəza baş verən anda həmin gəmidə 5 nəfər heyət üzvü olub, hazırda itkin düşən dörd nəfərin axtarışları davam etdirilir.

Sahil Mühafizəsi Xidmətinin bildirdiyinə görə, qəza baş verən rayonda gecə vaxtı sıx duman olub.

# Yük gəmisində qaz sızması 8 nəfərin həyatına son qoyub



***Çinin Şandun vilayətinin Lunyan limanındakı yük gəmisində baş verən karbon-dioksid sızması 8 nəfərin ölümünə səbəb olub.***

Bu barədə vilayət hökuməti məlumat yayıb.

Hadisə ilə əlaqədar araşdırma aparılır.

# "Üç dəniz əfsanəsi"

## İndiyədək BTC ilə nəql olunan neftin həcmi 425 milyon tonu keçib

***Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin çəkilməsi ilə reallaşan və ulu öndər Heydər Əliyevin bir neçə onilliklər üçün hesablanan neft strategiyasının həlli və uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünya birliyində siyasi, iqtisadi inkişafı, qlobal hadisələrə təsir imkanları artan qüdrətli dövlət kimi tanınır, qəbul olunur. Əminliklə demək olar ki, "Üç dəniz əfsanəsi" adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı-Tbilisi-Ceyhan haqqında deyilən və geniş məkan mənasında işlədilən qlobal layihə sözü ötən müddətdə artıq öz təsdiqini tapıb.***

### Bakı-Tbilisi-Ceyhan: Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edən layihə

Tarixə nəzər salaq. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının təməl daşını təşkil edən "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başlandı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. "Əsrin müqaviləsi"nin mühüm tərkib hissələrindən birini də xarici şirkətlərlə birlikdə hasil olunan neftin nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edirdi. Ümummilli lider Heydər Əliyev bu məsələdə qətiyyət nümayiş etdirərək Azərbaycan neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxaracaq Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri ideyasını irəli sürdü. Bu ideyanı qəbul etmək istəməyən bəzi qüvvələrin cəhdlərinə baxmayaraq, Ulu Öndərin səyi və gərgin keçən danışıqlar prosesinin məntiqi nəticəsi olaraq bu layihə həyata vəsiqə aldı. Belə ki, ATƏT-in 1999-cu ilin noyabrın 18-də İstanbulda keçirilən sammitində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı bəyannamə imzalandı. Beləliklə də, Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradıldı. Daha sonra isə layihənin bəzi detallarının dəqiqləşdirilməsi, lazımi maliyyə mənbələrinin müəyyənləşdirilməsi ilə bağlı danışıqlar aparıldı.






BP şirkəti layihənin operatoru seçildi və kəmərin tikintisi, istismarı üçün isə "BTC Ko." şirkəti yaradıldı. Onun səhmdarları BP (30,1 faiz), SOCAR (25 faiz), "Chevron" (8,9 faiz), "Statoil" (indiki "Equinor") (8,71 faiz), "TPAO" (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), "Itochu" (3,4 faiz), "Inpex" (2,5 faiz), "ConocoPhillips" (2,5 faiz) və "Amerada Hess" (2,36 faiz) şirkətləri oldu. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) Bakı-Tbilisi-Ceyhan layihəsində iştirak etmək məqsədilə "AzBTC Co." törəmə şirkətini təsis etdi və bu qurum layihənin iştirakçıları olan neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış "BTC Company" şirkətində 25 faizlik iştirak payı əldə etdi. "AzBTC Co." şirkəti daxil olmaqla bütün digər iştirakçılar layihənin dəyərinin 30 faizlik hissəsini öz vəsaitləri hesabına, qalan 70 faizlik hissəsini isə beynəlxalq maliyyə institutlarından, ixrac kredit agentliklərindən və kommersiya banklarından cəlb edilmiş kredit vəsaitləri hesabına maliyyələşdirilməsi ilə bağlı qərar qəbul etdilər. Azərbaycan dövləti adından Azərbaycan "BTC Co." şirkətindəki payının maliyyələşdirilməsi isə Dövlət Neft Fondu tərəfindən həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2002-ci il iyulun 30-da "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərman imzaladı. Həmin Fərmanda BTC layihəsində Azərbaycanın iştirakının təmin edilməsi ilə bağlı öhdəliklərin yerinə yetirilməsi, o cümlədən ölkənin iştirak payının maliyyələşdirilməsi ilə bağlı məsələlər öz əksini tapdı.

Nəhayət, 2002-ci il sentyabrın 18-də Bakıda - Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Bununla da, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının mühüm tərkib hissələrindən olan Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsinə başlanıldı. Kəmərin inşası üçün podratçı şirkətin müəyyən edilməsi məqsədilə beynəlxalq səviyyəli tender elan olundu. Tender prosesinin nəticəsi olaraq Yunanıstanın "Konsolideytd Kontraktors Kompani" (CCIC) şirkəti qalib elan edildi. 2003-cü ilin fevral ayında Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq kəmərin tikintisinə start verildi. 2004-cü ilin oktyabrında BTC-nin Azərbaycan hissəsi Gürcüstan ərazisindən keçən hissəsi ilə birləşdirildi. BTC-nin Gürcüstan hissəsi 2005-ci ilin oktyabrında istifadəyə verildi.

Ulu öndər Heydər Əliyevin qalibiyyətli neft strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi sahəsində misilsiz xidmətlər göstərən Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən etibarən layihənin gedişi ilə bağlı şəxsən maraqlanır, vaxtaşırı olaraq tikinti işləri ilə tanış olur. Nəhayət, 2005-ci ilin aprelində tikinti işləri yekunlaşdırıldı. Həmin il mayın 25-də Səngəçal terminalında xam neftin BTC-yə vurulması ilə bağlı rəsmi tədbir keçirildi. Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları İlham Əliyev, Mixeil Saakaşvili və Əhməd Necdət Sezər terminalda quraşdırılmış xüsusi qurğudakı sürgünü açdıqdan sonra kəmərlə ilkin neft axmağa başladı.

2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı. İyunun 14-də "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən neftin ilk partiyası Ceyhan dəniz terminalında "British Hawthorn" tankerinə yüklənərək dünya bazarına yola salındı. 600 min barrel xam neft yüklənmiş həmin tankerin Ceyhan limanından yola salınması ilə Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə dünya bazarına ixracı başlandı. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

### BTC ilə bu vaxtadək 3,2 milyard barrel xam neft nəql olunub

Boru kəməri Bakı yaxınlığındakı Səngəçal terminalından başlayıb Azərbaycandan, Gürcüstandan və Türkiyədən keçərək Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan dəniz terminalınadək uzanır. BTC ilə nəql olunan xam neftin ümumi həcmi 425 milyon tonu (təxminən 3,2 milyard barrel) ötüb. Bütün bu həcmlər ümumilikdə 4 min 159 tankerə yüklənərək Ceyhan terminalından təhlükəsiz şəkildə dünya bazarına yola salınıb.

İstismara verildiyi 2006-cı ildə BTC ilə 57 milyon 78 min barrel neft nəql olunub. 2010-cu ildə kəmərlə illik nəqletmə ən yüksək göstəriciyə - 286 milyon 214 min barrelə çatıb. 2018-ci ildə isə Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə təqribən 34 milyon tondan çox, yəni 255 milyon barrel xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 327 tankerə yüklənib.

Cari ilin ilk 3 ayında BTC ilə təqribən 8 milyon tondan çox və ya 61 milyon barrel xam neft ixrac olunub və həmin neft Ceyhan limanında 74 tankerə yüklənib. Dörd ayda isə Azərbaycandakı magistral neft kəmərləri ilə nəqletmənin 81 faizi BTC vasitəsilə həyata keçirilib və bu kəmərlə 10 milyon 483,7 min ton neft nəql edilib. Həmçinin BTC ilə 1 milyon 523,4 min ton tranzit nefti də ötürülüb.

BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. 2013-cü ilin oktyabrından etibarən BTC boru kəməri ilə yenidən müəyyən həcmlərdə Qazaxıstandan gələn Tengiz xam neftinin nəqlinə başlanılıb. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan və Rusiya nefti nəql olunur. Bu ilin birinci rübündə BTC üzrə əməliyyat xərclərinə təqribən 25 milyon dollar, əsaslı xərclərə isə 6 milyon dollar xərclənib.

Hazırda "BTC Ko."nun səhmdarları belədir: BP (30,1 faiz), "AzBTC" (25 faiz), "Chevron" (8,9 faiz), "Equinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), "Itochu" (3,4 faiz), "Inpex" (2,5 faiz), "ExxonMobil" (2,5 faiz) və "ONGC (BTC) Limited" (2,36 faiz).

İstismar müddəti 40 il olan boru kəmərinin ötürücülük qabiliyyəti hazırda gündəlik 1,2 milyon barreldir. Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda, ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunan xam neftin dünya bazarına çıxışını təmin etmək üçün inşa edilmiş boru nəqliyyat vasitəsidir. Kəmərin uzunluğu 1768 kilometrdir. Respublikamızın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmərin Azərbaycan hissəsinin uzunluğu 443 kilometrdir. BTC Gürcüstanda 7 və Türkiyədə 9 bölgədən keçir. Kəmərin qalan 249 kilometri Gürcüstanın, 1076 kilometri isə Türkiyənin ərazisindən keçir.

Boru kəmərinin Azərbaycan və Gürcüstanda yerləşən hissələrinin operatoru "BTC Ko."nun səhmdarları adından BP, Türkiyədə yerləşən hissəsinin operatoru isə "Botaş International Limited" şirkətləridir. Kəmərin diametri Azərbaycanda və Türkiyədə, əsasən 42 düyümlükdür. Gürcüstan ərazisində kəmər 46 düyümlük borularla çəkilib. Türkiyədə Ceyhan dəniz terminalına enən axırıncı enişboyu hissədə isə 34 düyümlüyədək azalır. Boru kəməri 1500-dən çox çayla və 13 seysmik qırılma xətti ilə kəsişir. Kəmərin ən yüksək nöqtəsi 2 min 800 metr olan dağlardan keçdiyi yerdir ki, bundan sonra o, Ceyhanda yenidən dəniz səviyyəsinə enir.

Kəmərin istismar müddəti 40 ildir və hazırda orta ötürücülük qabiliyyəti sutkada 1,2 milyon barreldir. Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan kəmərin çəkilməsinə təxminən 4,5 milyard dollar vəsait xərclənib. Hazırda kəmər vasitəsilə ildə 60 milyon ton neft nəql etmək mümkündür. Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə bölgə, Avropa və ümumən dünya üçün iqtisadi və siyasi baxımdan, eləcə də enerji təhlükəsizliyi cəhətdən çox böyük əhəmiyyətə malik olmaqla yanaşı, Türkiyənin Qara dəniz boğazlarının həddən artıq yüklənməsinin də qarşısını alıb.

Azərbaycanın iqtisadi siyasətinin ən böyük uğurlarından sayılan BTC ölkəmizin Avrasiya regionunda mövqeyini xeyli gücləndirib, dövlətimizi Cənubi Qafqazın liderinə çevirib. Bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihədir. BTC mühüm texniki-iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, həm də böyük siyasi məzmun kəsb edir. Belə ki, bu kəmər dünya dövlətləri ilə Azərbaycanın yeni münasibətlərinin qurulmasına təkan verib, ölkəmizin xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə zəmin yaradıb.

*Nihad Budaqov*

# Dəniz Akademiyasının rektoru imtiyazlı tələbələrlə görüşüb

***Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Heydər Əsədov imtiyazlı tələbələrlə görüşüb.***

Qeyri-rəsmi, səmimi mühitdə keçən görüşdə rektor bildirib ki, valideyn himayəsindən məhrum olmuş, bir və ya hər iki valideynini itirmiş tələbələrin tədris və sosial-məişət problemlərinin həlli daim diqqət mərkəzindədir.





Rektor görüşdə tələbələrin də üzərinə böyük məsuluyyət düşdüyünü deyib. O qeyd edib ki, onlar dərslərini yaxşı oxumalı və gələcək karyeraları barədə indidən düşünməlidirlər.

Sonra Heydər Əsədov görüşdə iştirak edən tələbələrlə yaxından tanış olub, onların ailə vəziyyətləri ilə maraqlanıb. Hər bir tələbəni diqqətlə dinləyən rektor onların təhsil və şəxsi həyatlarında olan problemlərinin həlli istiqamətində görüləcək tədbirləri görüşdə iştirak edən məsul şəxslərlə müzakirə edib, müvafiq tapşırıqlar verib.

Tələbələr qayğıları ilə yanaşı, Akademiyanın fəaliyyətində görmək istədikləri məqamlara toxunaraq, arzularını səsləndiriblər.

Sonda onlar rektor Heydər Əsədova səmimi görüşə görə təşəkkürünü bildiriblər. Rektor da öz növbəsində belə görüşlərin davamlı olacağını vurğulayıb.

# “Bu gün dəniz bizim üçün innovasiyalar və inkişaf məkanıdır”

***Portuqaliyanın müdafiə naziri Joao Qomeş Kravinyo dənizin əsrlər boyu ölkəsi üçün böyük əhəmiyyət daşıdığını vurğulayaraq deyib ki, müasir təhdidlər qarşısında Portuqaliyaya yaxşı təchiz olunmuş hərbi dəniz donanması lazımdır.***



J.Q.Kravinyo bu sözləri Koimbredə Hərbi Dəniz Donanması Günü təntənələrində iştirakı zamanı jurnalistlərə müsahibəsində söyləyib. Yaxın 12 ildə dövlətin donanmanın yenilənməsi sahəsində ciddi addımlar atacağını qeyd edən nazir deyib:“Biz donanmamızın potensialını möhkəmləndirəcəyik. Bu gün Portuqaliyada bizim XXI əsrin cəmiyyəti kimi inkişafımızda və beynəlxalq aləmdə ölkəmizin nüfuzunun möhkəmlənməsində dənizin oynayacağı əsas rolla bağlı geniş konsensus mövcuddur. Bu gün dəniz bizim üçün innovasiyalar və inkişaf məkanıdır və əsas strateji aktivlərdən biridir”.

***Nigar Cəfərli***

# ASCO-nun təsis etdiyi əlavə təqaüd əlaçı tələbələri daha yaxşı oxumağa ruhlandırır

***Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Heydər Əsədov əlaçı tələbələrlə görüşüb.***

Çay süfrəsi arxasında, qeyri-rəsmi şəraitdə keçən görüşdə Heydər Əsədov əlaçıları Akademiyanın siması adlandırıb. O, tələbələrin tədrisdə qarşılaşdıqları problemlər, məişət qayğıları, narahatlıq doğura biləcək digər məqamlar barədə geniş söhbət açıb. Hər bir tələbə ilə ayrıca maraqlanan rektor öz tələbəlik illərindən xatirələr bölüşüb.





Rektor tələbələrlə söhbətində müasir dövrdə ölkəmizdə təhsilin səviyyəsinin getdikcə yüksəldiyini, dövlət səviyyəsində gənc nəslə diqqət və qayğının artdığını vurğulayıb.

Əlaçı tələbələr Akademiyada tələbələr üçün yaradılmış şəraitdən razı olduqlarını bildiriblər. Onlar dövlət təqaüdü ilə yanaşı, ASCO-nun təsis etdiyi əlavə təqaüd imkanını çox gözəl təşəbbüs adlandıraraq, maddi vəziyyətlərinə əhəmiyyətli kömək kimi qiymətləndiriblər. Eyni zamanda, rastlaşdıqları problemlərin həlli ilə bağlı təkliflərini səsləndiriblər.

Heydər Əsədov Akademiyada görüləcək işlərdən ətraflı danışıb, ADDA rəhbərliyinin tələbələrin təklif və arzularını həyata keçirmək üçün əlindən gələni edəcəyini söyləyib.

Tələbələr səmimi və maraqlı söhbət üçün təşəkkürlərini bildiriblər və bundan sonra da əlaçılıq ənənələrini davam etdirəcəklərinə söz veriblər.

# Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı sahəsində əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib

***Nur-Sultan şəhərində Qazaxıstanın Baş naziri Askar Mamin ilə Gürcüstan Baş nazirinin müavini Mamuka Baxtadze arasında görüş keçirilib. Görüşdə tranzit-nəqliyyat sahəsində qarşılıqlı maraq doğuran məsələlərə xüsusi diqqət yetirilib.***



Söhbət zamanı iqtisadi-ticari əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib. Tərəflər iqtisadiyyatın ayrı-ayrı sektorlarında əmtəə dövriyyəsinin həcminin artırılması, konkret investisiya layihələri barədə qərarlar qəbul etmək niyyətlərindədirlər. Qısa müddətdə qarşılıqlı ticarətin həcminin ikiqat artırılaraq 300 milyon dollara çatdırılması nəzərdə tutulur.

Ötən il Qazaxıstan ilə Gürcüstan arasında ticarət dövriyyəsi 34,6 faiz artaraq 100 milyon dollar təşkil edib. Nəqliyyat, o cümlədən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı sahəsində əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib. Nəticədə 2015-2018-ci illərdə bu marşrut üzrə tranzit daşımaları 13 dəfədən çox artıb. Bu il daşımaların həcminin 120 min konteynerə çatdırılması planlaşdırılır.

***İlahə Əhmədova***

# “Vətən saatı”

***Azərbaycan Dövlət Dəniz Akademiyasının akt zalında İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) təşəbbüsü ilə “Vətən saatı” adlı tədbir keçirilib. Əvvəlcə ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra dövlət himni səslənib.***

Akademiyanın ümumi işlər üzrə prorektoru Əlimərdan Quliyev tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, Vətən uğrunda canını verən Azərbaycan övladlarının xatirəsi daim ürəyimizdə yaşayır. Şəhid olsalar belə, onların əməlləri bugün də istər gənc, istərsə də yaşlı nəslin nümayəndələri üçün örnək olaraq qalır. Belə tədbirlər də ölkəmizin ictimai həyatında həmişə fəallığı ilə seçilən tələbələrə şəhidlərimiz və onların qəhrəmanlığı barədə daha ətraflı informasiya verməyə kömək edir.









Sonra İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli çıxış edərək gənclərə dövlətçilik mövqeyinin, vətənpərvərlik ruhunun aşılanması üçün ali təhsil ocaqlarında vətənpərvərlik saatlarının keçirilməsinin əhəmiyyətini vurğulayıb.

“Vətən saatı” ideyasının müəllifi, yazıçı-publisist Azər Hacıbəyli gənclər arasında Milli Qəhrəmanların tanıdılmasının və keçdikləri mübarizə yolunun öyrənilməsinin vacibliyindən danışıb. İSBAM sədrinin müşaviri, “Dövlət və Qanun” qəzetinin baş redaktoru Yasəmən Möhübbətqızı gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində mətbuatın rolu barədə söhbət açıb. Daha sonra tədbirdə iştirak edən Milli Qəhrəman Səfiyar Behbudovun bacısı Naibə Behbudova və şairə, polis mayoru Aidə Şirinova, İSBAM sədrinin müşaviri Samir Şahverdiyev çıxışlarında Azərbaycan Qəhrəmanlarının keçdiyi mübarizə yolunun gənc nəsil üçün gözəl örnək və əsl vətənpərvərlik məktəbi olduğunu qeyd ediblər. Tədbirin yekununda ilk Milli Qəhrəman Səfiyar Behbudova həsr olunmuş sənədli film nümayiş etdirilib.

# Tranzit xarakterli bütün yollar yenidən qurulur



***Qonşu ölkələrlə tranzit yollarının genişləndirilməsi qarşılıqlı iqtisadi və ticarət əlaqələrinin artmasına səbəb olacaq.***

Bu sözləri İran Prezidenti Həsən Ruhani Urmiya şəhərinə səfəri zamanı deyib. O bildirib ki, İranın Qərbi Azərbaycan vilayəti ilə Türkiyəni birləşdirən Mərənd-Bəzarqan avtomobil yolu yenidən qurulacaq və bunun üçün büdcədən lazımi vəsait ayrılıb. H.Ruhani İranda tranzit xarakterli bütün yolların yenidən qurulması işlərinin davam etdiyini bildirib.

Bu gün İranda Rəşt-Astara və Ərdəbil-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolları yenidən qurulur. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin dəmir və dəniz yolları ilə yanaşı, avtomobil yolları da mühüm əhəmiyyət kəsb edir. Bu yol, eyni zamanda, İran Astarası ilə Azərbaycan Astarasını da birləşdirir. İran hökuməti 2015-ci ildən Rəşt və Ərdəbil şəhərlərini Astara ilə birləşdirən yolların yenidən qurulmasına başlayıb. Qeyd etmək lazımdır ki, bu yollar İranın cənub bölgəsində yerləşən Gilan və Mazandaran vilayətlərini birləşdirir. Bu vilayətlərin böyük ixrac potensialı var. Hər il İran milyonlarla ton sitrus meyvələrini Azərbaycan üzərindən avtomobillərlə Rusiya, Ukrayna, Belarusa ixrac edir.

Astaranı Ərdəbil və Rəşt şəhərləri ilə birləşdirən yolların yenidən qurularaq genişləndirilməsi ixracın yalnız Gilan və Mazandaran vilayətlərindən deyil, İranın cənub vilayətlərindən də ixracı artıracaq. İranın cənub vilayətlərində inşaat və qida məhsulları ixracı potensialı böyükdür. Bütün bu ixrac isə Azərbaycan üzərindən həyata keçiriləcək və ölkəmizin tranzit imkanları və gəlirləri artacaq.

Azərbaycan isə bu istiqamətdə Ələt-Astara magistral yolunu müasir standartlara uyğun olaraq yenidən qurub.

***Rabil Kətanov***

# Mülki müdafiə məşqi

***Azərbaycan Dövlət Dəniz Akademiyasında 2019-cu il üçün mülki müdafiə üzrə tədbirlər planına uyğun olaraq, mayın 22-də rəhbər heyətin “Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili” mövzusunda mülki müdafiə məşqi keçirilib. Tədbirdə ADDA-nın rəhbər heyəti, mülki müdafiə qüvvələrinin komandir-rəis heyəti, mülki müdafiə qərargahı iştirak edib.***

Mülki müdafə məşqinin əsas məqsədi Akademiyanın rəhbər, komandir-rəis heyətinin fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili üzrə biliklərinin təkmilləşdirilməsi, mülki müdafiə planının reallığının yoxlanılması, Akademiyanın fövqəladə hadisələrdə hazırlıq səviyyəsinin müəyyən edilməsi olmuşdur.



Akademiyanın elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru Vüqar Sadıqov rəhbər heyətin mülki müdafiə məşqi və Akademiyada mülki müdafiə hazırlığının vəziyyəti barədə geniş məlumat verib. Akademiyanın ümumi işlər üzrə prorektoru Əlimərdan Quliyev məşq zamanı fəaliyyət təminatı və vəzifələrin icrası vaxtı əlaqələrin qarşılıqlı təşkilinin önəmini vurğulayıb. Mülki müdafiə qərargahının rəisi A.Babaşov məşqin məqsədini, məşqin planının məzmununu və məşqin gedişini izah edib. Sonda məşqin nəticələri təhlil olunub.

# Pekin döyüş gəmilərini Tayvan boğazına göndərdiyi üçün ABŞ-a narazılığını bildirib

***Rəsmi Pekin iki döyüş gəmisini Tayvan boğazına göndərdiyi üçün ABŞ-a xəbərdarlıq edib.***



Çin Xarici İşlər Nazirliyinin rəsmisi Lu Kan mayın 23-də keçirdiyi ənənəvi mətbuat konfransında Birləşmiş Ştatlardan "Vahid Çin" prinsipinə hörmətlə yanaşmağı tələb edib. "Çin ABŞ hərbi gəmilərinin Tayvan boğazından keçidini yaxından izləyib və bununla əlaqədar Birləşmiş Ştatlara narazılığını bildirib, - deyə Lu Kan bildirib.

Tayvan məsələsinin Çin-ABŞ münasibətlərinin ən vacib və həssas hissəsi olduğunu vurğulayan Çin XİN-in rəsmisi rəsmi Vaşinqtondan razılaşdırılmış "Vahid Çin" siyasətini və imzalanmış 3 Çin-ABŞ birgə kommünikesini dəstəkləməyə çağırıb.

Qeyd edək ki, İkinci Dünya müharibəsindən sonra Çində baş vermiş vətəndaş müharibəsində Mao Cedonun rəhbərlik etdiyi kommunistlər Çan Kayşinin liderliyindəki Koumintan qüvvələrinə qalib gələrək Çin Xalq Respublikasının yaradıldığını elan ediblər. "Vahid Çin" prinsipinə əsaslanan ÇXR Tayvandakı qondarma "Çin Respublikası"nın mövcudluğunu qəbul etmir və adanın Çin Xalq Respublikasının tərkib hissəsi olduğunu bildirir.

Azərbaycan da "Vahid Çin" siyasətini dəstəkləməklə Tayvanı ÇXR-in tərkib hissəsi kimi qəbul edir.

***Şahin Cəfərov***

# İlk dəfə dənizə 50 yaşında olarkən çıxan Yusif Həsənbəyin həyatında bundan sonra dəniz dövrü başlayıb

***Beynəlxalq Muğam Mərkəzində Əməkdar incəsənət xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair, dramaturq, tərcüməçi Yusif Həsənbəyin yaradıcılıq gecəsi keçirilib.***

Gecədə akademik Nizami Cəfərov, filologiya elmləri doktoru Vaqif Yusifli və şairin sənət dostları onun yaradıcılığı ilə bağlı düşüncələrini bölüşüblər.

Yaradıcılıq gecəsində çıxış edən Yusif Həsənbəy bu günün həyatının ən xoş anlarından olduğunu vurğulayaraq deyib: “Bu görüş keçmiş görüşlərə bənzəmir. Uzun yaradıcılıq yolu keçmişəm, indi də dostlarımın, oxucularımın qarşısında bir növ imtahan verirəm. Mən taleyimdən razıyam. Çünki həmişə işləmişəm, yazmışam. Bu illərdə onu başa düşmüşəm ki, yazıçıyamsa əsər yazmalıyam. Çünki yazanda hər şeyi unuduram”. Şair yaradıcılıq fəaliyyətini davam etdirəcəyini vurğulayaraq, belə görüşlərin davamlı olacağına əminliyini bildirib.





Azərbaycan Yazıçılar Birliyinin sədri Anar çıxışında bildirib ki, 1960-ci illərdə Azərbaycan ədəbiyyatında dönüş yarandı. Bu nəslin nümayəndələri olan Məmməd Araz, Xəlil Rza, Tofiq Bayram, təəssüf ki, dünyalarını dəyişiblər. Amma onlardan biri olan parlaq sima - Yusif Həsənbəy aramızdadır. Anar Azərbaycanda sözlərinə ən çox mahnı bəstələnən şair kimi tanınan Yusif Həsənbəyin bir-birindən maraqlı poeziya nümunələrinin görkəmli bəstəkarlarımızın diqqətini cəlb etdiyini söyləyib. Azərbaycan Yazıçılar Birliyinin sədri çıxışının sonunda şairi təbrik edərək ona yaradıcılıq uğurları arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Nizami Cəfərov bildirib ki, Yusif Həsənbəy yaradıcılığa erkən çağlarından uşaq şeirləri ilə başlayıb. Özünü yetişdirib böyüdükcə, yaradıcılığı da tədricən inkişaf edib, kamilləşib. İndi o, peşəkar şair, ədəbiyyatçıdır, həyatını şair kimi yaşayıb, ədəbiyyatın kapitanı olub. Yusif Həsənbəyin son illərdə yazdığı şeirlərin hamısını oxuduğunu vurğulayan N.Cəfərov deyib: “Bu şeirlərdə dəniz, ekoloji mühit, insanın təbiəti, ictimai-siyasi məsələlər var. Bir sözlə, Yusif Həsənbəy yaradıcılığının palitrası genişdir. O, şeirlərini yazanda dərhal oxumağa vermir, əvvəl özü oxuyur, sonra ədəbi ictimaiyyətə təqdim edir. Özü də şeirlərini oxuyanda kövrəlir. Bu, o deməkdir ki, o, əsərlərinin qəhrəmanları ilə yaşayır”.

Bildirilib ki, Yusif Həsənbəy 1932-ci ildə Quba rayonunda doğulub. İlk təhsilini Quba Pedaqoji Texnikumunda alıb. Ürəyində dənizə böyük məhəbbət olan Yusif Həsənbəy dənizçi olmaq istəyib. Dənizçilik məktəbinə daxil olsa da, müəyyən səbəblərə görə təhsilini yarımçıq qoymalı olub. Amma onun ürəyində hər zaman dənizə getmək, dəniz haqqında əsər yazmaq hissləri baş qaldırıb. Uzun illərdən sonra - 50 yaşında olarkən ilk dəfə dənizə çıxan Yusif Həsənbəyin həyatında bundan sonra dəniz dövrü başlayır.

Qeyd olunub ki, onun “Sualtı döyüşlər” əsərinin qəhrəmanları gerçək həyatdan götürülən obrazlardır. Bu roman çap edildikdən sonra Azərbaycan ədəbiyyatında əks-səda yaradıb. Belə bir müqayisə də aparılıb ki, uşaqlar böyüyüb ailə həyatı qurandan sonra pərvazlanıb ata evini tərk edirlər. Bədii əsərlər də belədir, yazıldıqdan sonra müstəqil həyata başlayırlar. Yusif Həsənbəyin şerləri də insan qəlbini riqqətə gətirir.

Tədbirdə Xalq artisti, qiraət ustası Eldost Bayramov şairin şeirlərini səsləndirib. Sonra Gülyaz və Gülyanaq Məmmədova bacıları, Əməkdar artist Gülüstan Əliyeva və gənc xanəndələr Yusif Həsənbəyin şeirlərinə bəstələnən mahnıları ifa ediblər. İfaçıları Azərbaycan Televiziyasının Əhsən Dadaşov adına Xalq Çalğı Alətləri Ansamblı müşayiət edib.

Gecənin aparıcısı filologiya elmləri üzrə fəlsəfə doktoru, tədqiqatçı Gülhüseyn Kazımlı olub.

# “Burgazada” korveti “Kristalidis” yunan gəmisinin hücumuna məruz qalıb



***Türkiyə Dəniz Qüvvələri tərəfindən beynəlxalq sularda keçirilən “Denizqurdu-2019” təlimlərinə qatılan Türkiyəyə aid “Burgazada” korveti, yunan hücum gəmisi “Kristalidis”in hücumuna məruz qalıb.***

AZƏRTAC xəbər verir ki, edilən xəbərdarlıqdan sonra bölgədən ayrılmağa məcbur olan Yunan gəmisinin beynəlxalq qaydalara əməl etmədiyi və naviqasiya təhlükəsizliyini pozduğu kameralarla qeydə alınıb.

Təhlükəsizlik qüvvələrindən alınan məlumata görə, “Burgazada” korvetinə 200 metr məsafədən sahil tərəfdən yaxınlaşan yunan hücum gəmisi daha sonra korvetin irəliləmə istiqamətində çox yaxın məsafədə manevrlər edib.

Qeyd edək ki, “Denizqurdu-2019” təlimləri Ağdəniz, Ege və Qara dənizdə eyni zamanda keçirilir.

***Günel Məlikova***

# "Dənizçilərin IQ testi"

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri üçün "Dənizçilərin IQ testi" adlı seminar keçirilib.***





Seminarı ASCO sədrinin müşaviri, uzun illər dənizdə çalışan, tanınmış kapitan Titos Giannakakis aparıb.

Titos Giannakakis bildirib ki, hazırda bayraq və liman idarəçiləri tərəfindən gəmilərdə aparılan yoxlamalar, gəmilərdə tətbiq olunan qaydalar, müştərilərin istəkləri, gəmilərin texnoloji inkişafı, müxtəlif millətlərdən ibarət heyət üzvləri səbəbindən ortaya çıxan çətinliklər dənizçilərdən, xüsusilə gəmidə yüksək vəzifə sahiblərindən təkcə savad yox, həm də çətin vəziyyətlərdən çıxmaq üçün böyük zəka tələb edir. Beynəlxalq daşımalarla məşğul olan şirkətlər gəmi və heyətin qarşılaşdıqları problemləri həll etmək üçün yalnız bacarıqlara və peşəkar biliklərə malik şəxsləri deyil, həm də şəxsiyyət kimi formalaşmış işçiləri heyət üzvləri sırasına qəbul edirlər.

Kapitanın sözlərinə görə, hətta daşımalarla məşğul olan bəzi şirkətlərdə hər hansı əməkdaşı heyətə daxil etməzdən əvvəl onları xüsusi hazırlanmış testdən keçirirlər. Beynəlxalq şirkətlər bu metoddan rəhbər şəxslərin işə qəbulu zamanı da yararlanırlar. Bu test şəxsin intellektual bacarığını, zehni qabiliyyətini, dünyagörüşünü və davranışını təhlil etməyə imkan verir. Başqa sözlə, bu, şəxsin intizam, səmimiyyət, qətiyyət, özünə inam, stressə davamlılığı və emosional sabitliyinin ölçülməsi üçün tətbiq olunan testdir.

İki saat davam edən seminar maraqlı müzakirələrlə yadda qalıb. Tələbələrin sualları cavablandırılıb, fikirləri dinlənilib.

# "Bir kəmər, bir yol": qloballaşmanın yeni modeli?"

***ABŞ-ın Harvard Universitetinin rəsmi saytında Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyevin müəllifi olduğu "Bir kəmər, bir yol": qloballaşmanın yeni modeli?" sərlövhəli məqalə yerləşdirilib.***




Məqalə ingilis və rus dillərində dərc edilib. Yazıda bildirilir ki, ildən-ilə "Bir kəmər, bir yol" layihəsinə maraq göstərən ölkələrin sayı artır.

Cənubi Qafqazın geosiyasi mərkəzi kimi Azərbaycan "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsində fəal iştirak edir. Azərbaycan "Bir kəmər, bir yol" layihəsi çərçivəsində 35 təsdiqlənmiş layihənin maliyyələşdirildiyi 13 ölkədən biridir. Bakı bu layihənin həyata keçirilməsində iştirakını inkişaf etdirmək niyyətindədir. Bu baxımdan Azərbaycan Çin ilə Avropa arasına beynəlxalq dəmir yolu marşrutlarının işlənməsi üçün bir mexanizm qurub, Qazaxıstan bu prosesdə fəal iştirak edir. Qazaxıstanın ilk Prezidenti Nursultan Nazarbayev bu mövzuda İkinci Forumda danışıb. Qazaxıstan vasitəsilə Asiya və Avropanı birləşdirən ən qısa marşrutlar keçəcək. Azərbaycan, Qazaxıstan və Ukrayna bu prosesdə öz layiqli yerlərini ala bilərlər. Qloballaşmanın alternativ modeli olaraq bu layihənin taleyi vaxtla müəyyən ediləcək. Lakin bu gün ekspertlər bu təşəbbüsün faydaları haqqında danışırlar.

Məqalədə daha sonra Azərbaycanın regionda rolu təhlil edilir. Ölkəmizin Xəzər və Qara dəniz hövzələri ölkələri ilə əməkdaşlığında rolu barədə də geniş fikirlər vurğulanır.

***Emil Hüseynli***

# Sentyabrın 1-dək balıqların sənaye məqsədilə ovlanması qadağandır

***"Niyə balıqçılar düşünmürlər ki, kürütökmə dövründə balığın ovlanması onun kökünün kəsilməsi deməkdir? Məgər bunun üçün hansısa elmi yanaşmaya ehtiyac var? Hamıya bəllidir ki, kürüsü olan balıq ovlanırsa, yüzlərlə körpə balıq məhv edilir. Nəticədə ildən-ilə balıq növlərinin sayı azalır. Bu da ölkənin balıq ehtiyatlarının məhvinə şərait yaradır."***

Bunu jurnalistlərə açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova deyib.

"İndi balıqların kürütökmə dövrü olduğu üçün sentyabrın 1-dək sənaye məqsədilə balıq ovu qadağan edilib. Lakin brakonyerlər tərəfindən yenə də qəddarcasına balıq ovlanması halları müşahidə olunur. Hamılıqla belə düşüncəsiz addım atan şəxslərin qarşısını almalıyıq. Anlamalıyıq ki, balıqların kortəbii ovlanması az bir vaxtda qarşısıalınmaz fəsadlara səbəb olacaq", - deyə nazirliyin mətbuat xidmətinin rəhbəri bildirib.



İ.İbrahimova qeyd edib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi icazəsiz balıq ovu ilə məşğul olan, qadağan olunmuş ov alətlətindən istifadə edən, nəzərdə tutulmayan yerlərdə balıq ovlayan brakonyerlərin qarşısını almaq üçün mütəmadi reydlər keçirir və saxlanılanların işi prosedura uyğun olaraq tədbir görülməsi üçün hüquq mühafizə orqanlarına göndərilir. Təkcə son 4 ay ərzində 42 iş hüquq mühafizə orqanlarına göndərilib.

O, həmçinin bildirib: "Bir-iki qurumun əməkdaşlarının dənizin və çayların bütün nöqtələrini qoruyub brakonyerləri aşkar etmələri fiziki olaraq mümkün deyil, bu işdə cəmiyyətin bütün təbəqələrinin sayıqlığı vacibdir. Bir məsələni də qeyd etmək istərdim ki, bəzi vətəndaşlar rastlaşdıqları brakonyerlərin görüntüsünü çəkərək yayırlar. Düzdür, bu da lazımdır, lakin bundan daha önəmlisi onları qınamaq, dərhal polisə və ya nazirliyə məlumat verməkdir. Məncə, bu cür yanaşma daha effektiv və faydalı olar.

Onu da deyim ki, balıq və digər su bioresurslarının sənaye məqsədilə ovlanması kürütökmə dövrü ilə əlaqədar Nazirlər Kabinetinin 2017-ci il 2 iyun tarixli Qərarı ilə təsdiq edilmiş "Balıq və digər su bioresursları ovunun Qaydaları"na əsasən daxili su hövzələrində aprelin 1-dən, Xəzər dənizində isə mayın 1-dən sentyabrın 1-dək qadağandır.

Hər bir vətəndaşı balıq ehtiyatlarının qədrini bilməyə, faunamıza düşmən münasibət bəsləməməyə və gələcək nəsillər üçün onu qorumağa çağırırıq".

# Balıqçı gəmisində... kokain

***İspaniya Milli Polisinin agentləri açıq dənizdə 1,5 ton kokain daşıyan gəmi ələ keçiriblər.***




Əməliyyat İspaniya hərbçilərinin, habelə Britaniya, Fransa, Portuqaliya və Braziliya hüquq mühafizə orqanlarının köməyi ilə aparılıb.

Narkotiklər Braziliyadan İspaniyaya istiqamət götürən balıqçı gəmisində olub. Polislər kokain gətirildiyini qabaqcadan biliblər. Hələ aprel ayından hüquq mühafizə orqanlarının nəzarətində olan gəmi saxlanılanda içərisində yeddi nəfər olub. Onların hamısı həbs edilib. Yük müsadirə edilərək Las-Palmas-de-Qran-Kanariya limanına gətirilib.




# Gəmi kapitanının qeyri-leqal miqrasiyanı dəstəklədiyi iddia olunur

***İtaliya prokuroru axtarış-xilasetmə gəmisi olan "Sea Watch 3"-ün kapitanı Arturo Sentore ilə bağlı araşdırmaya başlayıb.***

ANSA agentliyi xəbər verir ki, gəmi kapitanının qeyri-leqal miqrasiyanı dəstəklədiyi iddia olunur. İtaliya hüquq-mühafizə orqanları gəmini müsadirə edib.

İtaliyanın Baş nazirinin müavini Matteo Salvini qeyri-hökumət təşkilatlarının axtarış-xilasetmə gəmiləri üçün İtaliya limanlarının bağlanması üzrə apardığı siyasətə baxmayaraq, Aralıq dənizində xilas edilən bir qrup miqranta həftəsonu Lampeduza adasında sahilə çıxmağa icazə verib.

***Asiman Əsədov***

# Dünya okeanının yarısı kosmos mənşəlidir

***Su planetimizin təxminən dörddəüçünü təşkil edir, lakin alimlər indiyədək onun mənşəyini və nədən bu qədər çox olduğunu dəqiq söyləyə bilmirlər.***



BBC telekanalının saytı xəbər verir ki, irəli sürülən ehtimallardan biri Yerin formalaşdığı və çox gənc planet olduğu mərhələdə su ilə zəngin olan mineralların okeanları əmələ gətirməsidir. Digər fərziyyə isə ondan ibarətdir ki, okeanın müəyyən hissəsində suyun mənşəyi planetimizə gəlmiş kometalar və asteroidlərdir. Arizona Universitetinin kimyaçı alimlərinin tədqiqatları ikinci ehtimalın doğru olduğunu təsdiq edir. Onlar İtokava daş asteroidinin süxurlarında çoxlu su aşkar ediblər. Bu göy cismi son zamanlaradək tamamilə "quru" hesab olunurdu.

Alimlərin hesablamalarına görə, planetimizin mövcud olduğu milyardlara il ərzində İtokava kimi asteroidlər Yer kürəsinə Dünya okeanının su ehtiyatlarının yarısını gətirə bilərdi. Beləliklə, dəqiq desək, planetimizdə 700 milyard meqaton, yaxud 1,4 sekstillion (sekstillionun yazılışında 1 rəqəmindən sonra 21 sıfır var) su mövcuddur. "Yer kürəsi kosmosun mavi nöqtəsində yerləşir və burada çoxlu su ehtiyatları və üzvi birləşmələr var. Məhz onların sayəsində həyat mövcuddur. Başqa bu cür planet elmə məlum deyil. Bizim əsas vəzifəmiz bunun necə baş verdiyini aydınlaşdırmaqdır", -deyə Arizona Universitetinin professoru Metraye Boz vurğulayıb.

Hələ ki, İtokava tərkibinin öyrənildiyi ilk və yeganə asteroiddir. Lakin asteroidlər, kometalar və digər göy cisimlərinin Dünya okeanının yaranmasında böyük töhfələrinin olmasını iddia etmək üçün bu tədqiqat kifayət edir. Tədqiqatın iştirakçılarından biri Tszin Tszilyan deyir: "Biz tədqiq etdiyimiz nümunələrdə Günəş sistemi hüdudlarında olan göy cisimlərindən də çox su olduğunu müəyyən etdik".

2005-ci ildə "Hayabusa-1" yapon kosmik zondu Günəş sistemimizin yarandığı vaxt meydana gəldiyi ehtimal olunan İtokava asteroidinin orbitində üç həftə qalıb. Sonra aparat onun səthinə enib və süxurların nümunəsini götürərək 2010-cu ildə Yerə çatdırıb. Tədqiqatlar zamanı məlum olub ki, asteroidin süxurlarının tərkibində minerallar, çoxlu silisium var. Alimlər hesab edirlər ki, İtokava başqa göy cismi ilə toqquşma nəticəsində parçalanaraq daha böyük obyektdən ayrılıb. İndi kosmosda olan ikinci yapon zondu digər asteroidin – Ryuqanın səthinə enib. Oradan götürüləcək süxurlar da Yerə çatdırılacaq.

# ABŞ və Filippin gəmiləri mübahisəli sularda birgə təlimlər keçiriblər

***Filippinin və ABŞ-ın Sahil Mühafizəsi xidmətləri Cənubi Çin dənizinin mübahisəli sularında birgə təlimlər keçiriblər.***



Filippin Sahil Mühafizəsi Xidməti xəbər verir ki, təlimlər Luson adasının qərbində, Skarboro Şoal adasının yaxınlığında keçirilib. Bu, ABŞ və Filippin dənizçilərinin dayaz yerdə keçirdiyi ilk birgə təlimlərdir.

Qeyd edək ki, Çinin nəzarəti altında olan həmin ərazilərə Filippin və Tayvan da iddialıdır.

Təlimlər zamanı ABŞ və Filippin hərbi-dəniz qüvvələrinə məxsus gəmilər sərnişin gəmisi batırıldıqdan sonra axtarış-xilasetmə əməliyyatlarını məşq ediblər.

Qeyd edilir ki, təlimlərin gedişində Çinin sahil mühafizəsinə məxsus olan iki gəmi onu izləyib. Gəmilərdən biri beş kilometr məsafədə Filippin gəmisinə yaxınlaşsa da təlimlərə mane olmaq üçün heç bir hərəkət etməyib.

Xatırladaq ki, 2016-cı ildə dövlət başçısı seçilən və Çindən iqtisadi yardım almağı planlaşdıran Rodriqe Duterte əvvəlcə Çinə Cənub Çin dənizindəki mübahisəni kənara qoymağı təklif edib. Lakin ölkə daxilində artan tənqidi nəzərə alan R.Duterte Çin sədri Si Cinpini 2016-cı ildə beynəlxalq tribunalın Çinin dənizin böyük bir hissəsinə olan iddiasını rədd etməsi barədə qərarına hörmətlə yanaşmağa çağırıb.

Eyni zamanda, ötən ay ABŞ və Filippin dəniz qüvvələri uzaqda yerləşən işğal edilmiş adanın azad edilməsi ssenarisi əsasında birgə illik təlimlər keçiriblər.

Bundan əlavə, ABŞ, Yaponiya, Hindistan və Filippin ilk dəfə cari ayın əvvəllərində Cənub Çin dənizində birgə təlimlər də təşkil ediblər.

***Vüqar Ağayev***



# Qəza vaxtı qayıqda 29 nəfər olub

***Çinin Quycou vilayətindəki qayığın batması nəticəsində 5 nəfər ölüb, 13 nəfər itkin düşüb.***

Vilayət hökumətinin məlumatına görə, hadisə Pancian çayının Cenfen dairəsindən keçən hissəsində baş verib. Qəza vaxtı qayıqda 29 nəfər olub. Dərhal hadisə yerinə gələn xilasedicilər 11 nəfəri sudan çıxarıblar. Beş nəfərin cəsədi tapılıb.

Hazırda itkin düşənlərin axtarışları davam edir.

***Şahin Cəfərov***

# Okeanların səviyyəsi artmaqda davam edərsə...

***Sakit okean ölkələri qlobal istiləşmənin fəsadlarından daha çox əziyyət çəkirlər. Dünya okeanı səviyyəsi bundan sonra da artmaqda davam edərsə, o zaman ada dövlətləri su altında qalmaq təhlükəsi ilə üzləşəcək.***



Birləşmiş Millətlər Təşkilatının Xəbərlər Mərkəzi bildirir ki, bu barədə baş katib qismində ilk dəfə Ficiyə gələn Antonio Quterreş bəyan edib.

BMT-nin Baş katibi Ficinin paytaxtı Suvada mətbuat konfransındakı çıxışı zamanı deyib: "Sakit okeandakı ada dövlətləri iqlim dəyişmələrində daha az təqsirkardırlar, lakin onlar mənfi fəsadlardan hamıdan çox əziyyət çəkirlər. Onlar həm öz əhalisinin müdafiəsi üçün əllərindən gələni edir, həm də istixana qazlarının atmosferə atılmasını azaldaraq istiləşmə ilə mübarizəyə qlobal töhfə verirlər. Bununla da dünyanın sənaye baxımdan inkişaf etmiş ölkələrinə örnək olurlar".

BMT rəhbəri forumda iştirak edən Sakit okean adalarının liderlərinə müraciətində göstərib ki, region ölkələrinin qarşılaşdıqları iki "fundamental problem" var: iqlim dəyişmələrinin nəticələri, həmçinin okeanın çirklənməsi və okean suyunun qalxması.

"Sakit okean regionu iqlim dəyişmələrinin nəticələrini hamıdan əvvəl hiss edir. Bu, o deməkdir ki, siz buna qarşı mübarizədə bizim müttəfiqimizsiniz", - deyə BMT rəhbəri forum iştirakçılarına müraciət edib.

Son 4 ilin müşahidələr tarixində ən isti illər olduğunu qeyd edən Antonio Quterreş Qrenlandiya və Antarktida buzlaqlarının əriməsini, həmçinin 2100-cü ilədək okeanların səviyyəsinin tam bir metr qalxacağı barədə ekspertlərin proqnozlarını xatırladıb. Baş katib bu problemin, ilk növbədə, Sakit okean dövlətlərinə təsir edəcəyini, bəzi adaların sadəcə yox olacağını vurğulayıb.

Antonio Quterreş dəniz ehtiyatlarının tükədilməsinin digər səbəblərini, o cümlədən bu ehtiyatların çox güclü istismarını və həddən artıq balıq ovunu göstərib. O, oksigendən məhrum olan "sualtı səhra"ları, zəhərli tullantıların və zibil yığınlarının töküldüyü dənizləri, həmçinin flora və faunanın nəsli kəsilməkdə olan bir çox növlərini xatırladıb.

BMT başçısı iqlim dəyişmələri və okeanın sağlamlığı ilə bağlı problemlərin həlli üçün Paris sazişinin müddəalarına riayət etməyə və 2030-cu ilədək olan dövrdə dayanıqlı inkişaf sahəsində hədəflərə nail olmağa çağırıb.

# İber-Amerika xəbər portalı Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Avropa ilə əməkdaşlığından yazıb

***Dünya energetika bazarından informasiyalar yayan İber-Amerika www.worldenergytrade.comxəbər portalında "Bakı limanı Avropanın iri logistika mərkəzi ilə əməkdaşlığa başlayır" sərlövhəli məqalə yerləşdirilib.***


WORLD ENERGY TRADE

El puerto de Bakú se conecta con un gran centro europeo

WORLD ENERGY TRADE / 02 MAYO 2019

PUERTOS Y ADUANAS

El acuerdo verá una asociación más estrecha con el gobierno del estado de Limburg, Países Bajos, y firmas como Cabooter Group, SMART Logistics Center, Limburg Development & Investment Company, Greenport Venlo y KLG Europe.

PREVIOUS ARTICLE
Polonia planea terminal flotante para impulsar las importaciones de

NEXT ARTICLE
La terminal más grande de Italia invierte en Kalmar Eco Equipment

Məqalədə bildirilir ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Niderlandın Venlo şəhərində Avropanın ən böyük logistika və nəqliyyat qovşaqlarından biri olan aparıcı şirkətlərin koalisiyası ilə əməkdaşlığa dair saziş imzalayıb. Sazişdə Cabooter Group, SMART logistika mərkəzi, Limburq İnkişaf Şirkəti və Greenport Venlo kimi holland şirkətləri ilə əməkdaşlıq nəzərdə tutulur.

Qeyd olunur ki, sazişin imzalanması mərasimində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov bu əməkdaşlıq nəticəsində tanınmış Avropa şirkətlərinin Bakı limanına cəlb olunacağından məmnunluğunu ifadə edib.

Almaniya sərhədinin yaxınlığında yerləşən Venlo şəhərində dünyanın ən iri şirkətlərinin distributor ofisləri fəaliyyət göstərir. Avropanın Rotterdam, Antverpen və Amsterdam kimi iri limanlarına daxil olan yüklərin əksəriyyəti Venlo nəqliyyat habına çatdırılır və oradan bütün qitəyə paylanılır.

***Nigar Cəfərli***

## Sakinlər işə qayıqlarla gedib-gəlirlər





***Filippinin şimal hissəsində yerləşən şəhərlər artıq 20 ilə yaxındır ki, su altında qalmaq təhlükəsi ilə üzləşib.***

Luson adasında yerləşən Pampanqa və Bulakan əyalətləri daim su altındadır. Yerli sakinlər işə, mağazaya və məktəbə qayıqlar vasitəsilə gedib-gəlirlər.

Suyun səviyyəsi ilbəil artır. Buna səbəb yalnız qlobal istiləşmə deyil, eyni zamanda, insanlar tərəfindən torpaq ərazilərinin tutulması göstərilir. Əhalinin sürətlə artdığı ərazilərdə fabriklər, fermalar və evlər üçün yeraltı suların nəzarət edilməyən şəkildə çıxarılması ciddi problemlər yaradır.

Rəsmi məlumatlara görə, su basmış ərazilərin 5 mindən çox sakini artıq ölkənin digər regionlarına köçüb. Süni peyklər vasitəsilə aparılan monitorinqlər zamanı Pampanqa və Bulakan əyalətlərində torpağın səviyyəsinin hər il təqribən 4-6 santimetr aşağı düşdüyü məlum olub. Bu fəlakət leysan yağışları və qasırğalar nəticəsində daha da güclənir. Dənizin suyu zaman-zaman adanın dərinliklərinə doğru irəliləyir. Mütəxəssislər onun tezliklə Filippinin 13 milyon sakini olan paytaxtına çatacağını proqnozlaşdırırlar.

2004-cü ildən başlayaraq yeraltı suların çıxarılmasına qadağa tətbiq edilsə də, kadr çatışmazlığı səbəbindən buna nəzarət demək olar ki, yoxdur.

## Mərcanların təqribən üçdəbir hissəsi artıq məhv olub



***Havay Dəniz Biologiyası İnstitutunun alimləri əlverişsiz şəraitə davamlı olan və sürətlə bərpa olunan mərcan növü aşkar ediblər. London Kral Cəmiyyətinin "Proceedings of the Royal" jurnalında dərc olunmuş tədqiqatda belə deyilir.***

Mərcan rifləri insan fəaliyyətinin müxtəlif nəticələrindən, qlobal istiləşmədən və suyun turşulaşmasından zərər çəkir. Mərcanların təqribən üçdəbir hissəsi artıq məhv olub. Onların sayı durmadan azalır. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun məlumatına görə, cəmi 1,5 dərəcə istiləşmə Yer kürəsində mərcan riflərinin 70-90 faizinin yoxa çıxmasına gətirib çıxaracaq.

Havay Dəniz Biologiyası İnstitutunun apardığı tədqiqatın baş müəllifi Kristofer Jüri əmindir ki, ən bədbin ssenarinin – mərcan riflərinin tamamilə yoxa çıxmasının qarşısını hələ də almaq olar. O deyib: "Təəssüflə etiraf etməliyəm ki, riflərlə bağlı vəziyyət sonrakı 20-30 il ərzində daha da pisləşəcək. Lakin bu o demək deyildir ki, işlərin belə gedişinin qarşısını almaq olmaz".

Tədqiqatçılar Havay adalarındakı Kaneoxe körfəzində 1930-1970-ci illərdə, demək olar, tamamilə məhv edilmiş mərcan riflərinə diqqət yetiriblər. Urbanizasiya, dibdərinləşdirmə işləri, sahilyanı rayonların inkişafı və çirkab sularının dənizə axıdılması nəticəsində körfəzdə mərcan örtüyünün sahəsi 95 faiz azalıb. 1970-ci illərin sonunda kanalizasiya sularının axıdılmasının qarşısı alınıb. Suyun çox isti və turş olmasına baxmayaraq, mərcanlar sürətlə çoxalmağa başlayıb. Körfəzdə adi mərcanların həyatı üçün faktiki olaraq yararsız şərait yaransa da, salamat qalmış supermərcanlar şəraitə uyğunlaşaraq çoxalmağa başlayıb.

Tədqiqatçılar müəyyən ediblər ki, mərcanın bu növü məskunlaşdığı mühitə o dərəcədə öyrəşib ki, daha sərin və turşulaşma səviyyəsi aşağı olan sularda özünü pis hiss edir.

Alimin fikrincə, supermərcanın bütün dünyada itirilmiş rifləri bərpa edə biləcəyini demək hələlik tezdir. Onun fikrincə, hətta Kaneoxe körfəzindəki ən davamlı mərcanlar belə Yer kürəsində həyat şəraitinin getdikcə pisləşməsinə davam gətirməyə bilər. Jüri deyib: "Amma əgər zəruri addımlar indi atsaq, onda biz, uşaqlarımız və nəvələrimiz mərcan riflərinin bərpa olunmasının şahidi ola bilərik".

## Dünya okeanı sularında polimer mikrohissəciklərinin miqdarına görə okeanoloqlar son 50-70 ili "plastik dövrü" adlandırırlar



***"RİA Novosti"nin bildirdiyinə görə, Hind okeanı və onun sahillərinin böyük miqdarda plastik tullantılarla çirkləndirilməsi aşkar edilib. Alimlər təkcə Kokos adalarında milyona yaxın içki çöpü və ayaqqabı, 300 min diş fırçası və milyonlarla birdəfəlik paketlər tapıblar. Alimlərin gəldiyi qənaət və gələcək üçün proqnozları "Scientific Reports" jurnalında təqdim edilib.***

Tasmaniya Universitetinin (Avstraliya) əməkdaşı Cennifer Lavers deyib: "Bizim hesablamalara görə, bu adalarda 414 milyondan çox plastik tullantı hissəcikləri mövcuddur ki, onların da çəkisi 238 tona bərabərdir. Bu, çox mühafizəkar dəyərləndirmədir. Belə ki, biz çimərliklərin və sahillərin 10 santimetrdən çox dərinliklərində nələrin gizləndiyini öyrənməmişik və sadəcə olaraq, ən çirkli çimərliklərə gedib çıxa bilməmişik".

Hazırda Yer kürəsindəki zibilliklərə hər il təxminən 300 milyon ton plastik tullantı atılır. Onların çox hissəsi torpaq mikroblarına ayrılmır və demək olar ki, on illərlə, hətta yüz illərlə toxunulmaz vəziyyətdə qalır. Bu tullantılar dünya okeanına düşdükdə Sakit okeandakı "böyük tullantı ləkəsi"nə bənzər nəhəng yığına çevrilir.

Dünya okeanı sularında polimer mikrohissəciklərinin miqdarına görə okeanoloqlar son 50-70 ili tez-tez zarafatla "plastik dövrü" adlandırırlar. Alimlərin 2014-cü ildə dərc edilən müşahidələri göstərir ki, bu hissəciklər suda uzun müddət qalmır. Onlar, çox güman ki, balıqlar və dəniz heyvanları tərəfindən yeyilir. Bu səbəbdən də ekologiyaya və insanların sağlamlığına təhlükə yaradır.

## Plastik tullantılara qarşı qlobal pakt qəbul edilib



***Dünyanın müxtəlif ölkələrinin plastik tullantılarla mübarizəsini gücləndirmək məqsədilə BMT-yə üzv olan 187 dövlətin nümayəndələri Cenevrədə ixrac olunan məhsullarla bağlı sərtləşdirilmiş qaydaları müəyyən ediblər.***

BMT-nin Cenevrə bölməsində qəbul olunan pakta əsasən, gələcək ölkələr plastik tullantıların idxalından imtina edə biləcəklər. Bu pakt gələcəkdə inkişaf etmiş ölkələrdən tullantıların ixrac edildiyi inkişaf etməkdə olan ölkələr üçün yardımçı xarakter daşıyır. Bundan sonra tərkibində plastik maddələrin üstünlük təşkil etdiyi tullantıları başqa ölkələrə ixrac edərkən artıq həmin ölkə hökumətinin birmənalı razılığı əldə olunmalıdır. İndiyədək tətbiq olunan praktikada aşağı dəyərli plastik tullantılar müxtəlif ölkələrə ixrac edilir və yerli hökumət qurumlarının razılığı olmadan fərdi ərazilərdə depolaşdırılırdı.

BMT-nin Ətraf Mühit Proqramının (UNEP) nümayəndəsi Rolf Payetin açıqlamasına görə, pakt hüquqi icbari status daşıyır və təhlükəli tullantıların transmilli daşınması, eyni zamanda, utilizasiyasına dair 1989-cu il Bazel Konvensiyasını genişləndirir. Qeyd edilib ki, hər il təxminən səkkiz milyon plastik tullantı beynəlxalq sulara buraxılır. Hazırda dünya okean və dənizlərində yüz milyon ton plastik tullantı mövcuddur.

Pakta əsasən, hər bir ölkə ixrac etdiyi plastik maddələrin tərkibini ətraflı şəkildə göstərməlidir. Yeni BMT qaydalarına əsasən, tullantının ixracı yalnız onun dəqiq çeşidlənməsi və yeni emal üçün hazır vəziyyətə gətirilməsindən sonra mümkün olacaq. Bundan başqa isə plastik tullantıları idxal edən dövlətlərə onun emalı üçün təxmini dəstək göstəriləcək. Nəhayət, paktda dünyada plastik istehsalının məhdudlaşdırılması üçün səylərin gücləndirilməsi də əksini tapır.

Ekspertlər hesab edirlər ki, bu pakt bir tərəfdən plastik materialların istehsalına, digər tərəfdən isə tərkibində plastik maddələr olan məhsulların beynəlxalq ticarəti və tullantıların ətraf mühitə vurduğu zərərin qarşısının alınmasına müsbət təsir göstərəcək.

Qeyd edək ki, dünyanın bir sıra inkişaf etmiş ölkələri inkişaf etməkdə olan bəzi ölkələrə ucuz qiymətlərlə tullantı ixrac edir, həmin ölkələrdən tullantı depoları kimi sui-istifadə halları baş verir.

*Elgün Niftəli*

## Nil çayının üzərində yeni asma körpü istifadəyə verilib



***Misirin paytaxtı Qahirənin şimal hissəsində Nil çayının üzərində yeni asma körpü istifadəyə verilib.***

Altızolaqlı körpünün eni 70 metrə yaxındır. Bu, dünyanın ən geniş körpüsüdür.

Ginnesin Rekordlar Kitabının regional bölməsinin məlumatına görə, hazırda bu körpünün dünyanın ən enli asma körpüsü kimi tanınması istiqamətində işlərə başlanılıb.

*Asya Hacızadə*

## Dənizin yosun meşələrinin bərpası istiqamətində ilk addımlar atılır



***Bioloqlar və biznesmenlər Portuqaliyada "dəniz meşələri"nin, yəni sahilyanı bölgələrdə yosunların bərpası üçün platforma yaradır, bu il Portuqaliya sahilində ilk sınaqların keçirilməsinə hazırlaşırlar.***

"Dəniz meşəsi" layihəsi bu il Avropa İttifaqının dəniz işləri və "göy iqtisadiyyat" üzrə ənənəvi təşəbbüsünün Dünya Dəniz Gününə həsr olunmuş Avropa Konfransı çərçivəsində Lissabonda təqdim edilib.

Platformanın həmtəsisçisi Fransisko Sarayva Qomesin sözlərinə görə, məqsəd dəniz makroyosunlarının bərpasına kömək etməkdir. O deyib: "Dəniz yosun meşələrinin qırılması hər gün baş verən, lakin heç kəsin görmədiyi ən böyük ekoloji faciələrdən biridir. Hesablamalara görə, son 50 ildə bütün yosunların 30-40 faizi yoxa çıxıb. Hesablamalar doğrudursa, biz ölçüsü Hindistan boyda olan bir ərazidən danışırıq".

F.S.Qomes deyib ki, planetimizə kömək etmək üçün texnologiyalara vəsait yatırmalı, habelə yosunların çoxaldılması və seleksiyası texnologiyalarını dəstəkləməliyik.

Avstraliya, Yaponiya, Koreya Respublikasında dəniz sərhədlərinin məskunlaşdırılması üzrə layihələr artıq hazırlanıb. Şimali Atlantika, Norveç, Portuqaliya, ABŞ və Kanadada çox güclü elmi birlik mövcuddur. Bu birlik dənizin yosun meşələrinin bərpası istiqamətində ilk addımlar atır.

Bioloqun sözlərinə görə, layihəyə bu ilin sonunda start veriləcək.

*Nigar Cəfərli*

## "Ölüm gəmisi" incəsənət yarmarkasında nümayiş etdirilir



***Venesiya Biennalesinin incəsənət yarmarkasında Aralıq dənizində qəzaya uğrayan miqrant gəmisi nümayiş etdirilir.***

Göyərtəsində təxminən min miqrantın olduğu mavi-qırmızı rəngli balıqçı gəmisi 2015-ci il aprelin 18-dən 19-na keçən gecə ona köməyə gələn Portuqaliyaya məxsus yük gəmisi ilə toqquşub. Həmin qəza nəticəsində 900-dək insan həlak olub. Yük gəmisinin heyəti miqrantlara kömək etməyə çalışsa da, gəmi dərhal batıb və yalnız 28 nəfərin həyatını xilas etmək mümkün olub.

*Asiman Əsədov*

## Ən böyük tunes balığı tutulub



***Madeyranın paytaxtı Funşal şəhərində yerli balıqçılar dünyada ən iri tunes balığı tutublar. Balığın çəkisi 404 kiloqramdır. Balıqçılar yaxın vaxtlarda bu nəticənin Ginnesin Rekordlar Kitabına daxil olunması üçün müraciət edəcəklər.***

Məlumata görə, hazırda həmin balıq Funşaldakı xüsusi balıq anbarında saxlanılır. Balıqçılar həm şöhrətlənə, həm də varlana bilərlər. Nəhəng tunes balıqlarının ətini çox vaxt iri restoran şəbəkələri alır. Məsələn, 2013-cü ildə Tokioda çəkisi 222 kiloqram olan mavi tunes balığını 1,8 milyon dollara alıblar.

## Yaponiya hökuməti okeanda həll olan plastikin yayılmasına dəstək verəcək




***Yaponiya hökuməti okeanda həll olan plastik istehsal edən milli şirkətlərə dəstək verməyi planlaşdırır.***

Yaponiya İqtisadiyyat, Ticarətə və Sənaye Nazirliyi xəbər verir ki, bu cür plastiklər hazırda ölkədə istehsal edilən 10 milyon ton plastmasın ümumi miqdarında çox cüzi paya malikdir.

Yaponiya, İtaliya və Almaniyanın kimyəvi məhsullar istesal edən şirkətləri tərəfindən buraxılan bioloji parçalanmaya malik plastmas növləri dünya miqyaslı problemə çevrilən plastik tullantılar probleminin həllinə mühüm təsir göstərə bilər.

Okeandakı mikroorqanizmlərin yaratdığı fermentlər və digər faktorlar plastikin bu növünün suya və karbon 4-oksidə parçalanmasına səbəb olur.

Nazirliyin rəsmi nümayəndələrinin bildirdiyinə görə, hökumət şirkətlərlə birlikdə çalışaraq bu cür parçalanan plastmasların beynəlxalq standartlarını yaratmağı və bununla da bütün dünyada onun istehsalını və satışını artırmağı nəzərdə tutur.

Hazırda həmin məhsul üzrə hər bir istehsalçı şirkət öz texniki standartlarına malikdir.

Bu məqsədlə, dövlət tədqiqat müəssisələrinin özəl şirkətlərlə birlikdə araşdırmalar aparması nəzərdə tutulur.

*Vüqar Ağayev*

## YARIZARAFAT, YARIGERÇƏK

**Nəyi unudursan unut, insan olduğunu unutma.**

**Heç kimə heç nə verməyən xəsislər nə əcəb Əzrayıla can verirlər?**

**Hər şeyi saxta olanın nifrəti saxta olmaz.**

**Özlərini çoxbilmiş kimi göstərənlərin "tamaşaları" nə vaxt bitəcək?**

**Oxumaq istəməyən də səhvlərdən dərs çıxartmalıdır.**

**Okeanın yağışa ehtiyacı yoxdur. Amma yağsa, onun üçün də pis olmaz.**

**Hamı hər şeyi "bilən" yerdə aydın heç nə olmur.**

**Eşitməmisən? Nədənsə çox adam yaxşı şeyləri eşitmir?**

**Yaddaşı "pozulanlar" niyə yalnız yaxşı şeyləri unudurlar?**

**İki ayağını bir başmağa dirəyənlərin adətən necə cüt artıq ayaqqabısı olur.**

**Teoremin isbata, yalanın anda ehtiyacı olur.**

**Bəzilərinin ən çox qarnı ağrıyır. Niyə?**

**Dostu olana da, düşməni olana da dost həmişə lazımdır.**

**Bu vaxta kimi göydən bircə alma da düşməyib. Amma hələ də nağıllara inananlar var.**

**Harda danışdınsa, orada yerin də qulağı var.**

**Adam var, heç yuxuda da halal yemir.**

**Allaha inanmamaq heç kəsə haram yemək haqqı vermir.**

**Bəzilərinin deyəsən həqiqətə qarşı allergiyası var.**

**Pullu adamların pulla ala bilməyəcəyi o qədər şeylər var ki...**

**Siqaret çəkənləri siqaret də... məzara çəkir.**

**Ən düz yol ən qısa yoldur. Bəzən o qədər qısa olur ki, görmürük.**

**Kiminlə harada vidalaşacağımızı heç kəs bilə bilməz.**

**Bildiyin nə var ki, nə çəkdiyimi də biləsən?**

**Sözün mənim üçün dəyərini bilsəydin, yəqin mənə heç vaxt söz verməzdin.**

**Hər şeyə arxa çevirən nəyin arxasında nəyin dayandığını bilməz.**

**Çox vaxt məndən eşitmək istədikləri mənim eşitmək istəmədiklərim olur.**

**Hər kəs Vətənə verdiyindən artıq almağa çalışsa, Vətəndən nə qalar?!**

**Usta olmadığın işlərdə heç olmasa asta olma.**

**Çox bildiyini düşünənlər başqa şey düşünmürlər.**

**Əxlaqı gözəl olmayanların qalan gözəllikləri qara qəpiyə də dəyməz.**

**Güvənmədiklərimlə işim yox. Onsuz da güvəndiklərimə kifayət qədər aldandım.**

**Ən yaxşı nəticə səhvlərimdən çıxartdığım nəticədir.**

**Lazım oldu-olmadı, çox şeyin arxasınca qaçırıq. Ömrümüz qaçhaqaçda keçir.**

**İnsanlar haqlıdan çox, güclü ilə hesablaşırlar. Gücünü göstər, haqq olan Allahım!**

**Nə qədər ki, başı olan başında ağlı olandan qat-qat çoxdur, başımız çox ağrıyacaq.**

**Cəsarətli olmayan xəcalətli olar.**

**Yaşamaq üçün doğuluruq, ölmək üçün... yaşayırıq.**

**Hamımız bir az oxşamaq istədiklərimizə oxşayırıq.**

**Bəziləri ancaq zəhlə tökürlər.**

***Rasif TAHİROV***

## Yelkənli idman və üzgüçülüklə məşğul olmaq istəyənlərin nəzərinə!

KHAZAR Sailing Club

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) tərkibində fəaliyyət göstərən "Xəzər" Yelkənli Qayıqlar İdman Klubu həm uşaqlar, həm də böyükləri üzgüçülük və yelkənli idman növü ilə məşğul olmağa dəvət edir.

Klubda peşəkar təlimçilər sizə üzgüçülük və yelkənli idmanın bütün sirlərini öyrədəcəklər.

Maraqlananlar (012) 404 37 00 (daxili: 3016) nömrəsi ilə əlaqə saxlaya bilərlər.

"Xəzər" Yelkənli Qayıqlar İdman Klubu 2014-cü ildə yaradılıb. Klubun yelkənçiləri dəfələrlə Qazaxıstan, Rusiya və digər ölkələrdə keçirilən yarışlarda qalib olublar.

Klubun 14 qayığı var, üzvlərinin sayı isə 20 nəfərdir.

## Yelkənçilərimizin Fransada keçiriləcək Avropa çempionatına hazırlığı davam edir

***Azərbaycan Yelkənli İdman Federasiyasının "Optimist" sinfi üzrə yelkənçilərdən ibarət komandası Fransada keçiriləcək Avropa çempionatına hazırlığı davam etdirir.***





Yelkənçilər mayın sonunadək İzmirdə təlim-məşq toplanışında olacaqlar. Hazırlıq məşqlərində Yunanıstan, Malta, Bolqarıstan və Türkiyədən olan yelkənçilər də iştirak edəcəklər. Məşqlərə beynəlxalq və dünya yelkəni üzrə məşqçi Vagelis Atzemian rəhbərlik edəcək. Təlim-məşq düşərgəsində Azərbaycanı "Optimist" sinfi üzrə yelkənçilər Kristina Kərimova, Fidan Ağazadə, Səxavət Əzimov, Murad Hacızadə, Timur Skaçevski, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız təmsil edəcəklər.

Beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edən yelkənçilərimiz dəfələrlə xaricdə təşkil olunan təlim-məşq düşərgələrinə qatılıblar. Təlim-məşq düşərgələrində iştirakın əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin və müxtəlif hava şəraitində təcrübələrinin artırılmasıdır. Hazırda Azərbaycan Yelkənli İdman Federasiyasında "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə xaricdən dəvət edilən iki baş məşqçi fəaliyyət göstərir. Komandaların məşqləri məhz xaricdən dəvət edilən idman menecerlərinin, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə keçirilir.

Aktiv bazası 2014-cü ildən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi maddi-texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində "Optimist" sinfi üzrə 7-14 yaş uşaqları, "Laser" sinfi üzrə isə 14 yaşdan yuxarı yeniyetmələri idmanın bu növünə cəlb etməkdir.

## Turnirdə 39 ölkədən 220-ə yaxın idmançı mübarizə aparacaq



***Bakı daha bir irimiqyaslı beynəlxalq yarışa ev sahibliyi etməyə hazırlaşır. Azərbaycan Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin və Azərbaycan Badminton Federasiyasının (ABF) təşkilatçılığı, Dünya Badminton Federasiyasının və Avropa Badminton Konfederasiyasının birgə dəstəyi ilə iyunun 6-9-da Bakıda "Azerbaijan International" turniri keçiriləcək.***

Azərbaycan Badminton Federasiyasından bildiriblər ki, "International Challenge" seriyalı turnirdə 39 ölkədən 220-ə yaxın idmançı mübarizə aparacaq. Bu, "International Challenge" seriyalı turnirlər üçün rekord göstəricidir. Ümumi mükafat fondu 25 min ABŞ dolları olan yarış Bakı İdman Sarayında təşkil ediləcək.

Beynəlxalq Badminton Federasiyasının təqvim planına daxil olan, 2020-ci il Tokio Yay Olimpiya Oyunlarına reytinq xalları qazandıracaq "Azerbaijan International" turnirində beş kateqoriya üzrə qalib və mükafatçılar müəyyənləşəcək. Bu, ölkəmizdə təşkil ediləcək ilk böyük badminton turniri olsa da, ona maraq kifayət qədər böyükdür. Bunu sübut edən faktlardan biri iştirakı təsdiqlənmiş badmintonçular arasında Olimpiya mükafatçılarının olmasıdır. Bakı kortlarında fransalı Brays Leverdez, İngiltərə təmsilçiləri Markus Ellis və Kris Lanqricin imkanları daha yüksək qiymətləndirilir və onların adları favoritlər sırasında çəkilir. Amma bu, Azərbaycan paytaxtına gələcəyi təsdiqlənmiş badminton aləmində tanınmış simaların heç də tam siyahısı deyil.

Bakı yarışı, həmçinin iyunun 21-30-da Minskdə keçiriləcək II Avropa Oyunlarından əvvəl badmintonçular üçün sonuncu ciddi sınaq olması baxımından da əhəmiyyət daşıyır.

Azərbaycan bu beynəlxalq turnirdə geniş heyətlə təmsil olunacaq. Turnirdə 20 badmintonçumuz mübarizə aparacaq. Görüşləri Avropadan və Asiyadan olan 16 hakim idarə edəcək. Əsas hakimlər arasında – Fidan və Gülcənnət Hüseynli bacılarının olması sevindirici haldır.

Xatırladaq ki, badminton dörd il əvvəl Bakıda keçirilmiş birinci Avropa Oyunlarının proqramında yer almışdı. Bu, Bakının badminton üzrə böyük yarışları keçirmək üçün lazımi təcrübəyə və idman infrastrukturuna malik olduğunu deməyə əsas verir. Birinci Avropa Oyunları kimi, qarşıdakı Olimpiya lisenziyalı yarış da Azərbaycanda badmintonun kütləviliyinin artırılmasına, gənclərin idmanın bu növünə üz tutmalarına yeni təkan verəcək. Bu əminliyi yaradan bir səbəb də badmintonçularımızın beynəlxalq turnirlərdə nəticələrinin getdikcə yaxşılaşmasıdır. Bu sırada badmintonçumuz Ezmi Qovimuramadhoninin Minskdə keçiriləcək II Avropa Oyunlarına vəsiqə qazanmasını xüsusi vurğulamaq lazımdır. E.Qovimuramadhoni "Minsk 2019"a vəsiqəni 28 turnirdə topladığı nəticələrə əsasən əldə edib. Dünya reytinqində 80-ci sırada qərarlaşan Edi Reski Dviçayo isə 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq şansını saxlayır. Edi-Ezmi tandemi qoşa badmintonçuların dünya reytinqində 66-cı sıradadır.

Qeyd edək ki, bu gün Bakı, Gəncə, Sumqayıt, Lənkəran və Quba şəhərlərində 7 idman təşkilatında 28 idman bölməsi fəaliyyət göstərir. Hazırda ölkəmizdə 500-dən çox gənc badmintonla məşğul olur. "Azerbaijan International"ın təşkilində də başlıca məqsəd badmintonun ölkəmizdə daha geniş təbliği, həmçinin Dünya Badminton Federasiyası və Avropa Badminton Konfederasiyasının ümumi işində fəal iştirak etmək, qarşılıqlı əməkdaşlığa töhfə verməkdir.

## Dünya birinciliyi tarixdə ilk dəfə yayda deyil, payız-qış mövsümündə keçiriləcək

***2022-ci ildə Qətərdə keçiriləcək futbol üzrə dünya birinciliyinin Təşkilat Komitəsi qarşıdakı turnirin iştirakçılarının sayının 32-dən 48-ə çatdırılmasına razılıq verməyə hazır olub.***




Lakin Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FİFA) mayın 22-də elan edib ki, dünya birinciliyində iştirak edən ölkələrin sayı dəyişməyəcək.

Bu qərar Qətərdə əlavə matçlar keçirilməsinə hazırlaşmaq üçün təşkilatın vaxtının çatışmaması ilə bağlıdır. FİFA-nın prezidenti Canni İnfantino əvvəlcə deyirdi ki, dünya çempionatının iştirakçılarının sayını 2022-ci ildən başlayaraq artırmaq, həmçinin görüşlərin bir qisminin Qətərdən kənarda keçirilməsi mümkündür. Bu məqsədlə əsas namizədlər Qətərlə qonşu Küveyt və Oman dövlətləri idi. Lakin sonradan Oman nümayəndələri bildiriblər ki, turnirin oyunlarının bir qisminin bu ölkədə keçirilməsi onların maraqlarına uyğun deyil.

Təşkilat Komitəsində qeyd ediblər ki, turnirin başlanmasına üç il yarım qalmış bu ölkə qarşıdakı dünya birinciliyində 32 komandanın iştirak etməsi tarixdə ən yaxşı birinciliklərdən biri olacaq. Onların sözlərinə görə, bu çempionat bütün ərəb dünyasının qürur duymasına əsas verəcək.

Dünya çempionatına Qətərin ev sahibliyi etməsi barədə qərar FİFA icraiyyə komitəsi tərəfindən 2010-cu ilin dekabrın qəbul edilib. Elə həmin vaxt elan olunub ki, 2018-ci ildə dünya birinciliyi Rusiyada keçiriləcək. Qətər futbol üzrə dünya çempionatına ev sahibliyi edən ilk Yaxın Şərq ölkəsi olacaq.

Qarşıdakı turnir həm də onunla əlamətdar olacaq ki, dünya birinciliyi tarixdə ilk dəfə yayda deyil, payız-qış mövsümündə keçiriləcək. Dünya çempionatının matçları 2022-ci il noyabrın 21-dən dekabrın 18-dək Qətərin yeddi şəhərində - Doha, Luseyl, əl-Vakra, əl-Xaur, əl-Rayyan, Ümm-Salal və Mədinət-əş-Şamalda keçiriləcək.

## Taekvondo üzrə millimiz Mançesterdə təşkil edilən dünya çempionatını iki medalla başa vurub

***Azərbaycanın taekvondo üzrə böyüklərdən ibarət milli komandası Böyük Britaniyanın Mançester şəhərində keçirilən dünya çempionatında aktivinə iki medal yazdırıb.***



Yarışın sonuncu günündə millimizin titullu idmançılarından olan Milad Beigi Hərçəqani 80 kq çəki dərəcəsində ikincə dəfə dünya çempionu olub. Təmsilçimiz bir gün əvvəl mərhələ döyüşlərində kuba, fransa, moldovalı və koreyalı idmançıya şans verməyərək finala vəsiqəni təmin edib. İdmançımız həlledici döyüşdə yunanıstanlı Apostolos Telikostoqlou da 22:12 hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb və Azərbaycanın dövlət himnini səsləndirib.

Qeyd edək ki, Milad ilk dünya çempionluğunu 2017-ci ildə Koreyanın Muju şəhərində qazanıb. O, 2015-ci il Avropa Oyunlarının qalibi, dünya kubokunun ikiqat sahibi (Meksika 2015-ci il, Bakı 2016-cı il), 2016-cı ilin Avropa çempionu (İsveçrənin Montrö şəhəri) və "Rio-2016" Yay Olimpiya Oyunlarının bürünc mükafatçısıdır. Taekvondoçumuz Taypey-2017 Universiada Oyunlarının, Bakı - 2016 Qran-Pri turnirin qalibidir. İdmançımız əvvəllər Rabat - 2017 Qran-Pri turnirin bürünc medalına, Çində keçirilmiş Usi-2017 "Böyük dəbilqə" turnirin bürünc mükafatına da sahib olub.

Mançesterdəki dünya çempionatına 10 idmançı ilə qatılan millimiz yarışı bir qızıl və bir bürünc medalla başa vurub.

Xatırladaq ki, bir gün əvvəl yarışan qadın taekvondoçumuz Fəridə Əzizova 67 kiloqram çəki dərəcəsində bürünc medala yiyələnərək fəxri kürsünün üçüncü pilləsində yer alıb.

Yığmamız yarışlarda Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidentləri Nağı Səfərov və Niyaməddin Paşayev, eləcə də baş məşqçilər Reza Mehmandoust və Elnur Amanovun rəhbərliyi ilə iştirak edib.


**"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ**

**AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI**



*2019/2020-ci tədris ilində ingilis dilli qruplarda adları aşağıda göstərilən fənləri tədris etmək üçün əməyi saathesabı (yüksək tariflə) ödənilməsi şərtilə professor-müəllim heyətinin (pedaqoji iş təcrübəsi və ingilis dili səviyyəsi yüksək olanlara üstünlük verilir) müqavilə əsasında işə qəbulunu*

**ELAN EDİR:**

- Azərbaycan tarixi
- Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları
- Fəlsəfə
- İnformatika
- Tərsimi həndəsə və mühəndis qrafikası
- Materialşünaslıq və materiallar texnologiyası
- Gəmi elektrik avadanlıqları
- Tətbiqi mexanika
- Gəmi quruluşu və nəzəriyyəsi
- Dəniz naviqasiyasının texniki vasitələri
- Mülki müdafiə
- Dənizdə həyat fəaliyyətinin təhlükəsizliyi və dəniz mühitinin qorunması
- İngilis dili
- Riyaziyyat
- Kimya
- Fizika

***Sənədlər iyunun 15-dək ADDA-nın Zərifə Əliyeva küçəsi, 18 ünvanında yerləşən əsas binasında qəbul edilir.***

***Əlaqə telefonu: 498-56-32***
***REKTORLUQ***


**ALLAH RƏHMƏT ELƏSİN**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin rəisi Elşad Abdullayevə, atası

**İSLAM ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Yuxusuzluq orqanizmin xarici amillərə reaksiyasıdır

***Çox vaxt insanlarda kəskin və ya stresslə bağlı yuxusuzluq müşahidə olunur. Bu, orqanizmin xarici amillərə reaksiyasıdır. İnsan sakitləşəndə və stress vəziyyətindən çıxanda yuxu da normallaşır. M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin yuxu təbabəti bölməsinin müdiri Mixail Poluektov bu barədə fikirlərini bölüşüb. Alim yuxusuzluğa qalib gəlmək üçün bir neçə məsləhət verib.***



"MedikForum" xəbər verir ki, M.Poluektovun sözlərinə görə, yuxusuzluq xəstəlik deyil, sindromdur. Əsas xəstəliyi müalicə edən kimi, yuxusuzluq da aradan qalxır.

Həkim deyib: "Yuxusuzluğun xroniki forması daha ağırdır. Belə yuxusuzluq aylarla davam edə bilər. Yuxunun uzun müddətə pozulması ciddi fəsadlara gətirib çıxarır: immunitet zəifləyir, ürək-damar xəstəlikləri, diabet və onkoloji xəstəliklər riski artır".

Bəs mütəxəssis yuxusuzluğa qalib gəlmək üçün hansı məsləhətləri faydalı hesab edir?

**Yataqdan qalxmaq.** Bəzən yuxunun pozulması üçün ciddi əsas olmur. Lakin insanda yuxusuzluğu gözləmə sindromu formalaşır. O, yuxuya gedə bilməyəcəyindən ehtiyat edir. Psixofizioloji faktor yaranır. Bu halda yataqdan qalxıb başını sakit bir işlə qatmaq lazımdır, onda yuxu öz-özünə gələcək.

**Həkimə müraciət etmək.** Əgər yuxusuzluq problemi iki-üç həftə davam edirsə və yuxunu müstəqil normallaşdırmaq cəhdləri səmərəsizdirsə, həkimə müraciət etmək lazımdır.

**Fiziki fəallıq.** Həkimlər yuxusuzluğa qalib gəlmək üçün məşq etməyi məsləhət görürlər. Yatmağa getməzdən 6 saat əvvəl idmanla məşğul olmaq çox faydalıdır. Müntəzəm fiziki fəallıq yuxunun keyfiyyətini yaxşılaşdırır. Bunu elmi tədqiqatlar da təsdiq edir.

**Dəqiq vaxt rejimi.** Yuxusuzluğa qalib gəlmək üçün eyni vaxtda yuxuya getmək və yuxudan oyanmaq lazımdır. M.Poluektovun sözlərinə görə, dəqiq vaxt rejimi nəinki yuxuya getmə probleminin həllinə, həm də gündüzlər insanın özünü gümrah hiss etməsinə kömək edir.

**Stimulyatorlardan imtina etmə.** Əgər yatmağa 6 saat qalmış fiziki hərəkətlər faydalıdırsa, yatmazdan əvvəl həm fiziki, həm də əqli fəaliyyəti məhdudlaşdırmaq lazımdır. Bundan əlavə, axşam saatlarında qəhvə, çay və spirtli içki içmək məsləhət görülmür, çünki onlar orqanizmə stumullaşdırıcı təsir göstərir. İşıqlandırma zəif, səslər isə boğuq olmalıdır.

**Sakitləşdirici içkilər.** Yuxusuzluğa qalib gəlmək üçün çox vaxt xalq təbabəti vasitələri, məsələn, bal qatılmış isti süd, çobanyastığı çayı və digər sedativ bitki komponentlərinin çayları tövsiyə olunur. Alimlərin fikrincə, bu çayların aşkar yuxugətirici təsiri yoxdur. Lakin əgər insan belə çayların ona kömək etdiyini düşünürsə, onlardan imtina etməməlidir.



## Diabet xəstələri üçün ideal səhər yeməyi

***Kanadanın Britaniya Kolumbiyası Universitetindən olan alimlər çox yağlı və az karbohidratlı səhər yeməyinin ikinci tip diabet xəstələrinə gün ərzində qlükoza səviyyəsini nəzarətdə saxlamağa imkan verəcəyini aydınlaşdırıb.***

Medical Xpress portalı xəbər verir ki, tədqiqatçılar könüllülərin üzərində iki günlük eksperiment keçirib. Onlara səhər yeməyinə birinci gün omlet, ikinci gün meyvəli yulaf yarması verilib. Nəzarət günlərində verilən digər yeməklər isə eyni olub. Eksperiment iştirakçılarının bədənlərinə quraşdırılan cihazlar hər 5 dəqiqədən bir qanda olan şəkər səviyyəsini qeydə alıb.

Sınaq zamanı yağlı və az karbohidratlı səhər yeməyi – omletin diabet xəstələrində qida qəbulundan sonra yaranan şəkər artmasının qarşısını almağa kömək etdiyi məlum olub. Bununla yanaşı, həmin effekt bütün gün ərzində müşahidə edilib. Bu nəticə alimlərin özü üçün də gözlənilməz olub.

"Biz hesab edirdik ki, maksimum 10 faiz karbohidratdan ibarət səhər yeməyi qanda şəkər artımının qarşısını alacaq, lakin qlükozanın ümumi nəzarət və sabitlik effekti bizim üçün gözlənilməz oldu. Az karbohidratlı və bol yağlı məhsulların rasiona daxil edilməsi böyrək, göz və damarlar üçün çox təhlükəli olan şəkər artmasından yayınmağın ən asan vasitəsi hesab edilə bilər", - deyə tədqiqatın müəlliflərindən biri Conatan Littl bildirib.


BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1837